# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

№ 433 Noyabr 2023



AYLIQ DƏRGİ

ISSN 2218-2772
khazar-review.khazar.org



# XANKƏNDİDƏ ZƏFƏR PARADI



# VICTORY PARADE IN KHANKENDI












# İÇİNDƏKİLƏR


Prezident İlham Əliyevin çıxışı ... 6
Simpozium: "Böyük Zəfərin 3-cü İldönümü: post-münaqişə dövrünün çağırış və imkanları" 10
Zəfər bayramına həsr olunmuş musiqili ədəbi-bədii kompozisiya ... 14
*Elza İsmayılova.* Ödənməz haqqınız, Kəmaləddin! ... 16
Pekin Xalq Siyasi Məşvərət Şurasının nümayəndə heyəti "Dünya" məktəbində ... 18
"Virtual Gems" komandası "Məhsul sahibi marafonu" müsabiqəsinin qalibi oldu ... 21
Xəzər Universitetinin məzunu Vüqar Mustafayev Azərbaycan Respublikasının müdafiə sənayesi naziri təyin edilib ... 22
Nailəxanım təqaüdünün növbəti təqdimetmə mərasimi ... 24
Xəzər Universitetində Mehmet Akif Ersoy`un anadan olmasının 150 illiyinə həsr olunmuş elmi simpozium ... 28
"Elm və Sənət Məclisi"nin növbəti məşğələsi ... 32
Türkiyə səfirliyinin əməkdaşları "Xəzər"də ... 38
Xəzər Universitetinin əməkdaşları "Uzun Həsən - Ağqoyunlu dövlətinin hökmdarı" sərgisinin açılışında ... 40
İraq türkmanları ilə görüş ... 41
"Qərbi Azərbaycanlılar: Unudulmuş İrs" kitabının təqdimatı ... 43
Kərkük şairi, araşdırmaçı-yazar, ictimai xadim Dr. Şəmsəddin Kuzəçi ilə görüş ... 44
"Xəzər"in departament müdiri Almatı şəhərində Zəfər Günü münasibətilə keçirilmiş tədbirdə ... 46
İstanbul Ticarət Universitetinin rektoru "Xəzər"də ... 48
Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Vroslav Universietində ... 50
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ... 52
*Ceylun Alıyev.* Psixologiyada "İona kompleksi" və onun sosial-psixoloji aspektləri ... 54
Rauf Denktaş Universitetinin rəhbərliyi "Xəzər"də ... 58
Sialkot Universitetinin nümayəndələri "Xəzər"də ... 59
İzmir Yüksək Texnologiya İnstitutunda Azərbaycan universitetlərinin iştirakı ilə təhsil turu keçirilib ... 61
*A.Əşrəf.* Xoşbəxtlİk arzulayıram hamınıza! ... 62
Elmi Şuranın növbəti iclası ... 66
*İmir Məmmədli.* Torsuz tennis oyunu ... 68
Bakı Seconq İnstİtutunun nümayəndələri"Xəzər"də ... 71
Xəzər Universitetinin müəlliminə Tatarıstan təhsil nazirinin təşəkkür məktubu təqdim edilmişdir ... 72
Memarlıq və dizayn departamentinin müəllimi İspaniyanın EASD Castello Universitetində ... 77



1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:** Xəzər Universiteti

**Baş redaktor:** Hamlet İsaxanlı

**Baş redaktor müavini:** Əlirza Balayev

**Məsul katib:** Valeh Mirzə

**Foto:** Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan: Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000



**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

**İngilis dilində mətnlərin redaktoru:**
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

President Ilham Aliyev`s Speech (*in Azerbaijani*) ... 6
Symposium: "The 3rd Anniversary of the Great Victory: Challenges and Opportunities of the Post-Conflict Era" ... 10
Victory Day Celebrated With a Musical-artistic Composition ... 14
*Elza Ismayilova*. We Cannot Forget Your Contributions (*in Azerbaijani*) ... 16
Delegation of Beijing People's Political Consultative Conference at "Dunya" School ... 18
"Virtual Gems" Team Wins "Product Owner Marathon" Competition ... 21
Vugar Mustafayev, Khazar University Alumnus , Was Appointed Minister of Defense Industry of the Republic of Azerbaijan ... 22
Next Pesentation Ceremony of Nailekhanim Scholarship ... 24
Scientific Symposium Dedicated to the 150th Anniversary of the Birth of Mehmet Akif Ersoy at Khazar University ... 28
Next Session of " Assembly of Science and Art " ... 32
Representatives From the Turkish Embassy Visit Khazar University ... 38
Khazar University Staff Memebrs at the Opening Ceremony of the Exhibition Showcasing "Uzun Hasan - The Ruler of the Aqqoyunlu Dynasty" ... 40
Meeting with Iraqi Turkmens ... 41
Presentation of the Book "Western Azerbaijanis: The Forgotten Heritage" ... 43
Meeting with Kirkuk Poet, Researcher-Writer, Public Figure Dr. Shamseddin Kuzachi ... 44
Khazar University Department Head Attends Victory Day Event in Almaty ... 46
Rector of Istanbul Commerce University at Khazar ... 48
Head of the Department of Political Sciences and Philosophy Visits the University of Wroclaw ... 50
News of the Institute of ANAS Named After Nizami (*in Azerbaijani*) ... 52
*Jeyhun Aliyev*. The "Jonah Complex" in Psychology and its Social- Psychological Aspects ... 54
Rauf Denktas University Administration at Khazar University ... 58
Sialkot University Representatives at Khazar University ... 59
*A.Ashraf*. I Wish Happiness to All of you ... 62
Next Scientific Council Meeting ... 66
*Imir Mammadli*. Tennis Game Without Grid (*in Azerbaijani*) ... 68
Representatives of Baku Sejong Institute at Khazar University ... 71
Khazar University Faculty Member Receives a Letter of Gratitude from the Minister of Education of Tatarstan ... 72
Khazar University Library Information Center at" ANOX Link " International Conference ... 74
Lecturer of the Department of Architecture and Design at EASD Castello University in Spain ... 77

It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Editorial Secretary**: Valeh Mirza

**Photo**: Multimedia Centre

Khazar University

Adress: 41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova



*Noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev paradda iştirak ediblər.*

*Dövlətimizin başçısı paradda çıxış edib.*

# PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Əziz hərbçilər, mən sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm.

**Hərbçilər**: Sağ ol.

**Prezident İlham Əliyev**: Üç il bundan əvvəl Qarabağın tacı olan Şuşa şəhəri işğalçılardan azad edildi. Ondan bir gün sonra düşmən ordusu təslim oldu və ağ bayraq qaldırdı. Beləliklə, İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə nəticələndi. Bu, tarixi hadisədir.

Azərbaycan xalqı uzun illər ərzində işğal dövründə bir nöqtəyə vururdu ki, tezliklə bizim torpaqlarımız işğalçılardan azad edilsin. Biz bu müqəddəs günü hər gün, hər saat öz əməyimizlə, işimizlə yaxınlaşdırırdıq.

Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq. Xatırlayıram, beş il bundan əvvəl - 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi.

Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi

hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə geriyə addım atmamışdıq. Düşmən ordusu Azərbaycan Ordusunun, Silahlı Qüvvələrin peşəkarlığını, fədakarlığını görərək daha da böyük təşvişə düşürdü və onların özlərinin etirafına görə, 44 günlük müharibə zamanı Ermənistan ordusunda 12 min fərari olmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin bir nəfər də olsun hərbçisi döyüş meydanını tərk etməmişdir. Bu, Azərbaycan xalqının əyilməz ruhunu və yüksək mənəvi keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirdi.

Şuşa əməliyyatı, təbii ki, 44 günlük Vətən müharibəsi dövründə xüsusi yerə malikdir. Çünki çox çətin coğrafi vəziyyətdə yerləşən, alınmaz qala sayılan Şuşanı yüngül silahlarla, bir çox hallarda əlbəyaxa döyüşlər nəticəsində azad etmək böyük güc, peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan övladları bunu göstərmişlər.

İyirmi il bundan əvvəl Prezident kimi öz fəaliyyətimə başlayanda əziz xalqıma bildirmişdim ki, biz torpaqlarımızı müharibə yolu ilə azad etməyə hazır olmalıyıq. O vaxt hələ sülh danışıqlarına müəyyən ümidlər var idi. Ancaq illər keçdikcə bu ümidlər tükənirdi. Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmaq istəmirdi. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması ilə məşğul olmuş vasitəçilər faktiki olaraq vəziyyəti dondurmağa çalışırdılar, hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Ancaq Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmaq fikrində deyildi və mən dəfələrlə bunu müxtəlif kürsülərdən bəyan etmişdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəyik, danışıqlar nəticəsiz başa çatsa, güc tətbiq edərək beynəlxalq hüquq əsasında öz doğma torpaqlarımızı döyüş meydanında işğalçılardan azad edəcəyik. Əgər Ermənistan rəhbərliyi və onun arxasında o vaxt və bu gün duran bəzi xarici qüvvələr mənim sözlərimə qulaq assaydılar, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Mən dəfələrlə deyirdim, Ermənistan rəhbərliyinə müraciət edərək deyirdim ki, əgər siz bizim torpağımızdan çıxmasanız, döyüş meydanında bizimlə üz-üzə gələcəksiniz və sizin arxanızda kim istəyirsə dursun, bu, bizi haqq yolumuzdan döndərə bilməz. 44 günlük Vətən müharibəsi bunu bir daha göstərdi.

Qırx dörd gün ərzində Azərbaycana müxtəlif yerlərdən, müxtəlif paytaxtlardan təzyiqlər göstərilirdi, təhdidlər səsləndirilirdi. Ancaq bizi haqq yolumuzdan heç kim göndərə bilməzdi və mən Vətən müharibəsi dövründə Azərbaycan xalqına müraciət edərək demişdim ki, düşmən bizə torpaqlarımızın azad olunmasının tarixini versin, o zaman biz müharibəni dayandırmağa hazırıq və belə də oldu. Şuşa Zəfərindən sonra düşmən faktiki olaraq kapitulyasiyaya hazır idi və bir gün sonra kapitulyasiya aktına imza atdı, biz də müharibəni dayandırdıq. O vaxt bizim Silahlı Qüvvələrimiz Xankəndinin bir addımlığında idi. Müharibənin o vaxt dayandırılması bizim şüurlu seçimimiz idi və bu gün bizim, bax, burada - Xankəndi şəhərinin mərkəzi meydanında hərbi paradı keçirməyimiz bir daha onu göstərir ki, nə qədər düzgün, müdrik addım idi.

O vaxt mən heç şübhə etmirdim ki, gün gələcək və burada - Xankəndi şəhərində Azərbaycan Bayrağı qaldırılacaqdır. 44 günlük müharibənin 10 noyabr 2020-ci il tarixində dayandırılması imkan verdi ki, Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarıldı. Bu, Ermənistanın imzaladığı kapitulyasiya aktının tərkib hissəsi idi və bizim tələbimiz idi. Ermənistan bu tələbi yerinə yetirməyə məcbur olmuşdu. Çünki döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin gücünü və Azərbaycan siyasi rəhbərliyinin siyasi müstəvidə iradəsini görmüşdür. Ağdam, Laçın, Kəlbəcər rayonlarının bir güllə atılmadan azad edilməsi minlərlə gəncimizin həyatını xilas etdi. Biz onsuz da o bölgələri də döyüş meydanında azad edəcəkdik. Ancaq şəhidlərimizin sayı daha çox ola bilərdi.

İkinci Qarabağ müharibəsindən sonra biz bir gün dayanmadan ordu quruculuğu prosesini sürətləndirirdik və bunu gizlətmirdik. Dərhal Qarabağ bölgəsində bütün vacib olan məntəqələrə yerləşdik. Eyni zamanda, uzun illər ərzində işğal altında qalmış Azərbaycan-Ermənistan sərhədini nəzarətə götürdük. Sərhəddə mövqelərimizi tədricən yaxşılaşdırdıq və müxtəlif tədbirlər nəticəsində

Azərbaycan-Ermənistan sərhədinin böyük hissəsində ən əlverişli mövqelərə malik olduq. Nə üçün biz bunu edirdik? Çünki biz bilirdik ki, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Biz bilirdik ki, Ermənistanın arxasında dayanan və onları bizə qarşı hərəkətə təhrik edən xarici qüvvələr onlara yenə də təxribatçı siqnallar verəcəklər. Ona görə biz öz sərhədimizi qorumalı idik və keçirilmiş bir neçə hərbi əməliyyat nəticəsində bu gün Azərbaycan-Ermənistan sərhədində vəziyyət bizim nəzarətimizdədir. Bununla bərabər, Qarabağ bölgəsində həyata keçirilmiş bir neçə hərbi əməliyyat bu bölgədə də əlverişli yüksəkliklərə sahib olmaq üçün bizə şərait yaratdı. Eyni zamanda, bu əməliyyatlar Ermənistan siyasi rəhbərliyinə də bir siqnal idi ki, siz kapitulyasiya aktında təsbit edilmiş bütün müddəaları icra etməlisiniz və ilk növbədə, öz silahlı qüvvələrinizi Qarabağdan çıxarmalısınız, bu, sizin öhdəliyinizdir. Amma həyatda biz bunun əksini gördük, nəinki Ermənistan silahlı qüvvələri çıxarılmadı, əksinə, daha çox qüvvə göndərilmişdi. O vaxt Laçın-Xankəndi yolu hələ bizim nəzarətimizdə deyildi, silah-sursat, minalar gətirilmişdi və Ermənistanın siyasi rəhbərliyi Qarabağdan öz silahlı qüvvələrini çıxarmaq istəmirdi.

Son üç il ərzində keçirilmiş hərbi əməliyyatlar, o cümlədən Fərrux əməliyyatı, Sarıbaba-Qırxqız əməliyyatı və digər hərbi əməliyyatlar həm bizim strateji mövqelərimizi böyük dərəcədə yaxşılaşdırmışdır. Eyni zamanda, Ermənistana göndərilmiş bir mesaj idi ki, bizi heç kim və heç nə dayandıra bilməz, Qarabağ Azərbaycan torpağıdır və burada vəziyyəti biz diktə edirik və siz dərhal silahlı qüvvələrinizi bizim torpaqlarımızdan çıxarmalısınız. Əgər o vaxt mənim sözümə baxsaydılar, sentyabr ayında keçirilmiş antiterror əməliyyatına ehtiyac qalmazdı. Onların bütün bəlalarının səbəbkarları elə onların özləridir. Onların bəlaları təkcə üç il bundan əvvəl başlamayıb, hələ 1990-cı illərin əvvəlində başlayıb. O vaxt Azərbaycanın çörəyini yemiş, Azərbaycanın suyunu içmiş nankor kütlə Azərbaycana qarşı, bax, bu meydanda ərazi iddiası qaldırmışdır. Bax, bu binada - Azərbaycan dövləti tərəfindən vaxtilə inşa edilmiş binada Azərbaycana qarşı məkrli planlar hazırlanırdı. Erməni xalqının bəlalarının səbəbkarları Ermənistana rəhbərlik etmiş bütün şəxslərdir. Onlar hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlayacaqlar. Özləri buna o qədər inanmışdılar, xarici tərəfdaşları da inandırmağa çalışırdılar ki, onların güclü orduları var, onların güclü potensialı var, güclü himayədarları var və Azərbaycan heç vaxt torpaqları hərbi yolla azad etməyə cürət etməyəcək. Onların dəyirmanına su tökənlər, bu gün də onların arxasında dayanmış bəzi ölkələr bu məsuliyyəti onlarla 100 faiz bölüşürlər.

Biz isə deyirdik ki, heç vaxt bu vəziyyətlə barışmayacağıq və bunu gizlətmirdik. Bizə nə qədər deyilmişdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin hərbi həlli yoxdur. Mən isə deyirdim ki, sülh yolu ilə bu məsələ həll olunmasa, bizim başqa çarəmiz qalmayacaq və 44 gün ərzində göstərdiyimiz qəhrəmanlıq, peşəkarlıq, əfsuslar olsun ki, Ermənistan rəhbərliyinə dərs olmadı.

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Noyabrın 8-də Şuşa əməliyyatından sonra düşmən ordusunun beli qırıldı və bir gün sonra kapitulyasiya aktına imza atdı. Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü tam bərpa etdik və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik. Bununla separatçıların kitabı bağlandı. Artıq Azərbaycanda separatçılığa yer olmayacaq. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir və bunun səbəbkarları bu gün, bax, bu meydanda dayanan bizim igidlərimizdir və on minlərlə Azərbaycan hərbçiləridir. Onların qanı-canı bahasına biz bu Qələbəni əldə etmişdik.

Mən bir daha demək istəyirəm ki, biz 20 il ərzində bu günə doğru gedirdik, hazırlıq işləri gedirdi, beynəlxalq hüquq müstəvisində Azərbaycan mövqeləri möhkəmləndirilirdi. Siyasi müstəvidə apardığımız uğurlu fəaliyyət nəticəsində bütün dünya artıq bilməyə başlamışdır ki, haqlı tərəf bizik. İqtisadi sahədə apardığımız islahatlar imkan verdi ki, müstəqil iqtisadiyyat quraq, heç kimdən asılı olmayaq, öz həyatımızı özümüz quraq. Güclü siyasi iradə imkan verdi ki, müstəqil xarici siyasət

aparaq, daxili siyasət aparaq, imkan verməyək kimsə bizim işimizə müdaxilə etsin. Halbuki belə cəhdlər tarixdə çox olmuşdur. Dövlətimizi, milli ləyaqətimizi, həyat tərzimizi, ənənələrimizi qorumuşuq ki, heç kim bizim işlərimizə burnunu soxmasın.

Əlbəttə ki, ordu quruculuğu birinci nömrəli vəzifə idi. Maddi-texniki təchizat, silah-sursatla təchizat, ordumuzun döyüş qabiliyyətinin qaldırılması və ilk növbədə, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi - budur, qələbəyə aparan əsas amillər. Nə qədər sənin silahın, sursatın olsa belə, nə qədər müasir hərbi texnologiyalardan istifadə etsən belə, qələbəni əldə edən əlində silah əsgərdir, zabitdir. O, sinəsini qabağa verir, o, ölümə getməyə hazırdır və biz bunu göstərmişik. Ən çətin, əlverişsiz coğrafi vəziyyətdə altı müdafiə zolağını yararaq, döşənmiş bir milyondan artıq minanın üzərindən keçərək, təpələrdə yerləşmiş düşmən mövqelərini məhv edərək, Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq və şücaət göstərmişdir. Əziz şəhidlərimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq və biz bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərmişdik. Yəni, hazırlıq işləri apararkən, bax, biz bu günü gözləyirdik. Mən bu 20 il ərzində heç vaxt şübhə etmirdim ki, bu gün gələcək və Xankəndi şəhərində Azərbaycan Bayrağı altında hərbi parad keçiriləcək.

Qırx dörd günlük müharibə zamanı çoxlu xarici media nümayəndələrinə müsahibələr verərək, təbii ki, bizim planlarımız haqqında mən danışa bilməzdim. Halbuki suallar demək olar ki, təkrarlanırdı. Bir dəfə demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olacaq. Ancaq hələ o vaxt mən bilirdim ki, Xankəndisiz, Xocalısız bizim işimiz yarımçıq qalacaq. Üç il bundan əvvəl mən əmr verərək Azərbaycan Ordusunu dayandırdım və bir daha demək istəyirəm, tarix göstərdi ki, nə qədər düzgün addım idi. Ancaq o gündən, bax, bu günə qədər - sentyabr ayına qədər hər gün biz işləyirdik, çalışırdıq ki, Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilsin. Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz - həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün.

Dörd il bundan əvvəl, bax, qarşıdakı Xankəndi şəhər stadionunda Ermənistanın baş naziri çıxış edərkən təkəbbürlə demişdi: "Qarabağ Ermənistandır və nöqtə". Biz ona, onun kimilərinə və onların arxasında duranlara döyüş meydanında qan tökərək, şəhidlər verərək göstərdik ki, o, səhv yolda idi. Biz göstərdik ki, Qarabağ Azərbaycandır, döyüşərək, vuruşaraq, heç nəyə baxmayaraq və bu gün hər kəs bilməlidir ki, bizimlə bundan sonra heç kim zarafat etməsin. Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, bugünkü parada bir nəzər yetirsin. Bilsin ki, burada mindən çox igidimiz düzülübdür və bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin.

Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik. Düşmən bizim qabağımızda diz çökdü və bu gün mən burada müzəffər Silahlı Qüvvələrin qarşısında çıxış edirəm. Yəni, biz bütün vəzifələri icra etmişik, ancaq bununla bərabər, bundan sonra da ordu quruculuğu məsələləri bizim üçün prioritet məsələlərdən biri olacaq. Bunu hamı bilsin və heç kim bunu unutmasın.

Mən bir daha, əziz hərbçilər, sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm.

**Hərbçilər: Sağ ol.**

**Prezident İlham Əliyev**: Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Qarabağ Azərbaycandır!

**Hərbçilər**: Qarabağ Azərbaycandır!





Hamlet İsaxanlı

## SİMPOZİUM: "BÖYÜK ZƏFƏRİN 3-CÜ İLDÖNÜMÜ: POST-MÜNAQİŞƏ DÖVRÜNÜN ÇAĞIRIŞ VƏ İMKANLARI"

## SYMPOSIUM: "THE 3RD ANNIVERSARY OF THE GREAT VICTORY: CHALLENGES AND OPPORTUNITIES OF THE POST-CONFLICT ERA"



Fərid Şəfiyev

Noyabrın 3-də Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamenti Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ilə birgə "Böyük Zəfərin 3-cü ildönümü: post-münaqişə dövrünün çağırış və imkanları" mövzusunda simpozium təşkil etmişdir.

Simpozium Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı və Beynəlxalq

On November 3, Khazar University's Department of Political Sciences and Philosophy, in collaboration with the Center of Analysis of International Relations, convened a symposium focusing on "The 3rd Anniversary of the Great Victory: Challenges and Opportunities in the Post-Conflict Era."

The symposium commenced with the opening speeches by Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and chairman of the Board of Directors and Trus-



Vasif Hüseynov

Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Dr. Fərid Şəfiyevin açılış nitqi ilə başlamışdır.

İki paneldən ibarət simpoziumun 1-ci paneli "Münaqişədən sonrakı dövrdə Azərbaycanın xarici siyasətinin gələcəyi" başlığı ilə keçmişdir. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin departament müdiri Dr. Vasif Hüseynovun moderatoru olduğu bu paneldə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Təhlil və Strateji Araşdırmalar Departamentinin müdiri Mahur Qasımov, ADA Universitetinin professoru Damjan Krnjevic

(*Ardı səh.12-də*)



*Mahur Qasımov*



*Damjan Krnjevic Miskovic*

tees, along with Dr. Farid Shafiyev, chairman of the Board of the Center of Analysis of International Relations.

The first panel of the symposium, comprising two sections, was entitled "The Future of Azerbaijan's Foreign Policy in the Post-Conflict Era." Dr. Vasif Huseynov, the head of the Center of Analysis of International Relations, moderated this panel. Speakers included Mahur Gasimov, the head of the Department of Analysis and Strategic Studies at the Ministry of Foreign Affairs of the Republic of Azerbaijan, Damjan Krnjevic Miskovic, a pro-

(*To be continued page 12*)




Araz Aslanlı



Orxan Vəliyev

Miskovic və Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzi İdarə heyətinin sədri Dr. Araz Aslanlı çıxış etmişlər.

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyevin moderatorluğu ilə keçən 2-ci paneldə məruzəçilərin “Cənubi Qafqaz və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması” mövzusu ətrafında çıxışları olmuşdur. Utah Universitetinin (ABŞ) professoru Hakan Yavuz, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin qonaq tədqiqatçısı Dinea Mark Andrei və Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin direktor müavini Fuad Çıraqov çıxış etmişlər.

Panellərdən sonra simpozium Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilovanın bağlanış nitqi və çıxışçılara hədiyyə təqdim edilməsi ilə başa çatmışdır.

fessor at ADA University, and Dr. Araz Aslanlı, chairman of the Board of Directors of the Caucasian Center for International Relations and Strategic Studies.

Dr. Orkhan Valiyev, the head of the Department of Political Sciences and Philosophy at Khazar University, took on the role of moderator for the second panel, which focused on "South Caucasus and the Normalization of Armenian-Azerbaijani Relations." Speakers included Professor Hakan Yavuz from the University of Utah (USA), Dinea Mark Andrei, a guest researcher at the Center for the Analysis of International Relations, and Fuad Giragov, the deputy director of the Center for South Caucasus Studies.

Following the panel discussions, the symposium concluded with the closing remarks and presentation of gifts by Assoc. Prof. Irada Khalilova, the rector of Khazar University.


Fuad Çıraqov


Dinea Mark Andrei


Khazar






Khazar





## ZƏFƏR BAYRAMINA HƏSR OLUNMUŞ MUSİQİLİ ƏDƏBİ-BƏDİİ KOMPOZİSİYA



Hamlet İsaxanlı



Noyabrın 6-da Xəzər Universitetinin Mərmər salonunda Humanitar, təhsil və sosial elmlər fakültəsinin müəllimi Pərvin Kərimovanın və tələbələrin təşkilatçılığı ilə Zəfər bayramına həsr olunmuş musiqili ədəbi-bədii tədbir keçirildi. Tədbirdə universitetin rəhbərliyi, əməkdaşlar və tələbələr, şəhid valideynləri və övladları, qazilər, digər qonaqlar iştirak edirdilər.

Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra universitetin müəllimi Məhsəti Cabbarovanın dirijorluğu ilə tələbələrin xor qrupu tərəfindən Azərbaycan Respublikasının



Elza Səmədova

## VICTORY DAY CELEBRATED WITH A MUSICAL-ARTISTIC COMPOSITION

On November 6, a musical literary-artistic event dedicated to Victory Day was organized by Parvin Karimova, a lecturer of the School of Humanities, Education and Social Sciences, and students in the Marble Hall of Khazar University. The university's management, staff, and students, along with parents and children of martyrs, veterans, and other distinguished guests, attended the event.

Following a moment of silence to honor the memory of the martyrs, the students' choir, conducted by university lecturer Mahsati Jabbarova, performed the National Anthem of the Republic of Azerbaijan.

During the event, Prof.Acad. Hamlet Isakhanli, the founder of Khazar University and chairman of the Board of Directors and Trustees, delivered a speech, emphasizing the significant importance of Victory Day in the history of Azerbaijan's independence and in the life of the country and its people. In her speech, Elza Samadova, the dean of the School of Humanities, Education, and Social Sciences, discussed the inception of the Army Aid Fund at the university during the early days of the Patriotic War and its continuous support with great enthusiasm until Victory Day.

The speeches by Teymur Huseynov, the father of Martyr Rafael Huseynov, Matanat Mamma-



*Mətanət Məmmədova*



*Teymur Hüseynov*

Dövlət Himni ifa olundu.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı çıxış edərək, Azərbaycanın müstəqillik tarixində, ölkənin və xalqın həyatında Zəfər Bayramının xüsusi əhəmiyyətindən bəhs etdi. Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova çıxışında Vətən müharibəsinin ilk günlərindən universitetdə Orduya yardım fondunun fəaliyyətə başlamasından və böyük ruh yüksəkliyi ilə Qələbə gününədək davam etməsindən danışdı.

Şəhid Rafael Hüseynovun atası Teymur Hüseynovun, şəhid Fuad Məmmədovun anası Mətanət Məmmədovanın və şəhid Əlizamin İsgəndərovun qızı – universitetin tələbəsi Mələkxanım İsgəndərlinin çıxışları dərin hüznlə yanaşı, böyük qürur hissi ilə qarşılandı. Şəhidlərin hər biri haqqında videoşarx, tələbələrin ifasında bədii kompozisiya nümayiş olundu.

Tədbirdə tələbələr Vətən müharibəsi və Qələbəyə həsr olunmuş şeirlər söylədilər. Tələbə Mustafa Xəlilov müəllifi olduğu "Mən ölüm, yaşasın Vətənim mənim" adlı şeirini oxudu.

Tədbir boyu musiqi proqramı təqdim olundu. Universitetin qızlardan ibarət rəqs qrupu "Sarı gəlin" və milli rəqslərimizi, tələbə Yəmən Əliyeva "Xudayar təsnifi"ni, Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi Rəvan Hüseynzadə "Azərbaycan-anaların anası" mahnısını ifa etdilər.

Tədbir tələbələr tərəfindən Azərbaycan və Türkiyə bayraqlarının dalğalandırılması və alqışlarla başa çatdı.

dova, the mother of Martyr Fuad Mammadov, and Malakkhanim Iskanderli, the daughter of Martyr Alizamin Iskenderov and a student of the university, evoked profound sadness and immense pride. The event also featured a video tribute for each martyr and an artistic composition performed by students.

During the event, students recited poems dedicated to the Patriotic War and Victory. Mustafa Khalilov, a student, recited his poem titled "Mən ölüm, yaşasın Vətənim mənim".

The event featured a musical program. The university's girls' dance group performed the



*Mələkxanım İsgəndərli*

" Sarı gəlin " and other national dances, while student Yeman Aliyeva sang " Xudayar təsnifi." Ravan Huseynzade, a student of the University of Culture and Arts, performed the song " Azərbaycan-anaların anası." The event concluded with students waving Azerbaijani and Turkish flags, accompanied by applause.





# ÖDƏNMƏZ HAQQINIZ, KƏMALƏDDİN!

İkinci Qarabağ müharibəsi... 44 günlük savaş... Hər qarış torpağından şəhid qanı fışqıran Vətəni qurşunlayan düşmənlərə qarşı döyüşdü qəhrəman oğullarımız, axıtdı al qanlarını onlar Ana Torpaq, Bayraq uğrunda... Hamısının başı dik, hamısı da məğrur... Gözlərini belə qırpmadan şəhid oldular, canlarını fəda etdilər heç vaxt bölünməz və bölünməyəcək bu Vətən uğrunda! Qanlarıyla təmizlədilər bu torpağı yağılardan... Kök saldılar neçə-neçə insanların qəlbində, tarixə keçdi ömürlük onlar... Adlarına minlərcə dastan yazılacaq belə qorxmaz igidlərimizdən biri də Kəmaləddin Məmmədzadədir!

Kəmaləddin Vüqar oğlu Məmmədzadə 1999-cu il sentyabrın 14-də Bakı şəhərində anadan olub. 2006-cı ildə Xətai rayonu 249 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub, ikinci sinifdən etibarən Rafiq Babayev adına 25 nömrəli Onbirillik Musiqi Məktəbinin beşillik skripka sinfində oxuyub. Eyni zamanda, üçüncü sinifdə oxuyarkən, əlavə fiziki məşğuliiyyət kimi boks və basketbolla da məşğul olub.

2017-ci ildə onbirillik orta məktəbi bitirdi, təhsilini Azərbaycan Memarlıq və İnşaat Universitetinin Nəqliyyat fakültəsində davam etdirdi. Kəmaləddin bu universitetdə iki il təhsil aldıqdan sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrində həqiqi hərbi xidmətə yola düşdü, on ay hərbi xidmətini yerinə yetirdikdən sonra Vətənin müdafiəsi üçün müharibəyə getdi.

İkinci Qarabağ müharibəsinin ilk günlərindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Laçın, Xocavənd uğrunda gedən döyüşlərdə düşmənlə düz qırx dörd gün savaşdı... O da, digər əsgərlərimiz kimi, Ali Baş Komandanın arxasında

mətin dayandı, qorudu hər qarışı qanla sulanan bu yurdu... Döyüş yoldaşlarının dediyinə görə, diz çökdürdü düşmənə, şəhid olan üç döyüş yoldaşının intiqamını almaq üçün son damla qanına qədər vuruşdu. Müharibənin sonuncu günü – noyabrın 8-i səhər saatlarında Şuşada erməni snayperi tərəfindən boynundan vurularaq qəhrəmancasına şəhid oldu, özü də şanlı şəhid oldu... Adını yazdırdı tarixin şərəfli səhifələrinə... Ömrünün qönçələnən vaxtı köçdü bu dünyadan... Al qanını qatdı Şanlı Bayrağına, ucaldı Şəhidlik zirvəsinə... Şəhidlik, əslində, qəhrəmanın ölümü deyil, ölümün qəhrəmanlığıdır. Dəfn olundu Saatlı rayonunun Minbaşıllı kənd Şəhidlər xiyabanında... Bu yaşında arxasınca əlvan, silinməz izlər buraxıb getdi Kəmaləddin...

Kəmaləddin Məmmədzadə Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Qubadlının azad olunmasına görə" (29.12.2020), "Cəsur döyüşçü" (04.03. 2021), "Füzulinin azad olunmasına görə" (24.06.2021), "Şuşanın azad olunmasına görə" (24.06.2021) medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (05.11.2022) ilə təltif olundu. Xətai rayonundakı Sülh küçəsinin adı dəyişdirildi və həmin küçəyə Kəmaləddin Məmmədzadənin adı verildi. Yaşadığı evin qarşısında Xatirə lövhəsinin açılışı oldu.

İgidlik duyğusu ilə xəmiri yoğrulan Kəmaləddin Məmmədzadəni – evin tək oğul övladını itirmək dəhşətli bir faciədir. Yüzillər keçsə də, sönməyəcək, acısı heç dinməyəcək bir qor düşdü Kəmaləddinin ailəsinin, onu sevənlərin və onu tanıyanların ürəyinə bu vaxtsız itkidən... Bir tərəfdən də qürurlanır, təsəlli tapır, dik durur, dözürlər bu boyda şəhid yükünə... Vətənin bütövlüyü, bölünməzliyi uğrunda qan tökən bu fidan – 21 yaşlı şəhid Kəmaləddin torpağa deyil, köçdü ürəklərə, hopdu beyinlərə, qaldı əbədilik yaddaşlarda...

Şəhadəti ilə tarix yazan, bir millətin namusu, şərəfi, qeyrəti olan Vətən sevdalısı Kəmaləddinin keçdiyi bu qısaca, bircə anlıq ömür yolu gələcəyin daha da güclənən Azərbaycanının memarı olacaq gənclər üçün bir örnəkdir. Bu cənnət çiçəyinin keçdiyi 44 günlük döyüş yolu qürurverici bir tarixdir, bir qəhrəmanlıq dastanıdır...

Şanlı tarixə çevrildi 44 günlük müharibə! Sel kimi qan axıtdılar, dağ çəkdilər düşmənin sinəsinə, oydular gözlərini onların ərənlərimiz... Can verdilər illərdir yaralı Qarabağa, yıxdılar ayrılıq divarını... Artıq bitdi 30 illik həsrət, Qarabağda dalğalanır ZƏFƏR BAYRAĞIMIZ! Doğdu Qarabağda heç vaxt batmayan günəş... Üzü güldü gözlərindən qan-yaş tökən Xarıbülbülün... Həzin-həzin çağlayır İsabulağı, oxuyur ZƏFƏR mahnısını... Cıdır düzündən səslənir "Qarabağ şikəstəsi" ...

Yerdə qalmadı qanınız, ruhunuz şad olsun, Vətənə möhrünü, Tarixə möhrünü vuran ŞƏHİDLƏR! Ödənməz haqqınız, Qarabağın qara bağrındakı yaranın məlhəmi ŞƏHİDLƏR!

**Elza İsmayılova**



Zhang Jiaming

# PEKİN XALQ SİYASİ MƏŞVƏRƏT ŞURASININ NÜMAYƏNDƏ HEYƏTİ "DÜNYA" MƏKTƏBİNDƏ

# DELEGATION OF BEIJING PEOPLE'S POLITICAL CONSULTATIVE CONFERENCE AT "DUNYA" SCHOOL

Noyabrın 3-də Pekin Xalq Siyasi Məşvərət Şurasının nümayəndə heyəti "Dünya" məktəbində olmuşdur. Şuranın sədr müavini Zhang Jiaming`ın başçılıq etdiyi nümayəndə heyətinə Şuranın Baş katibinin müavini, Tədqiqatlar şöbəsinin müdiri Chen Xu, Şuranın Baş katibinin müavini, Kadrlar və kommunikasiyalar şöbəsinin müdiri Yang Jinghui, Şuranın Təhsil, səhiyyə, fiziki tərbiyə, mədəniyyət, ədəbiyyat və tarix komitəsinin rəhbəri Chen Dong, Şuranın Syanqan, Aomen, Tayvan, Mühacirlər və Xarici Siyasət İşləri Komitəsinin sədr müavini Zang Likun və Pekin Xarici İşlər İdarəsinin əməkdaşı Chen Jingmin daxil idi. Nümayəndə heyətini Çinin Azərbaycandakı səfirliyinin əməkdaşları Su Tsin və Xie Yilin müşayiət etmişlər.

Qonaqlar məktəbin ümumi təhsil formatı və təhsil sistemi ilə maraqlanmışlar. Məktəbdə idman və mədəniyyətin tədrisi ilə bağlı suallar vermiş, məktəbin idman kompleksini gəzmişlər. Onlar "Dünya" məktəbinin həmtəsisçisi olmuş Nailəxanım İsayevanın xatirəsini əbədiləşdirmək məqsədilə yaradılmış Nailəxanım Muzeyinin eksponatlarına baxmışlar.

Sonra qonaqlar məktəbin "İnciçiçəyi" salonunda məktəbin IB bölməsinin müəllim və şagird heyəti tərəfindən hazırlanmış musiqili-bədii tədbirdə iştirak etmişlər. Tədbirdə Xəzər Universitetinin

On November 3, a delegation of the Beijing People's Political Consultative Conference visited the "Dunya" school. The delegation led by the Vice Chairman of the Council Zhang Jiaming included Deputy Secretary General of the Council, Head of the Research Department Chen Xu, Deputy Secretary General of the Council, Head of the Personnel and Communications Department Yang Jinghui, Head of the Council's Education, Health, Physical Education, Culture, Literature and History Committee. They included Chen Dong, Vice-Chairman of the Council's Jiangnan, Macao, Taiwan, Immigrants and Foreign Policy Affairs Committee Zhang Likun, and a staff member of the Beijing Foreign Affairs Office Chen Jingmin. The delegation was accompanied by staff members of the Chinese embassy in Azerbaijan, Su Tsin and Xie Yilin.

The guests were interested in the general educational format and educational system of the school. They asked questions about the teaching of sports and culture at the school and toured the school's sports complex. They viewed the exhibits of the Nailekhanim Museum, which was created to perpetuate the memory of Nailekhanim Isayeva, who was the co-founder of the "Dunya" school.

təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı qonaqları salamlamış, məktəb haqqında ümumi məlumat vermişdir. Pekin Xalq Siyasi Məşvərət Şurasının sədr müavini Zhang Jiaming çıxış edərək, məktəb haqqında xoş təəssüratlarını bildirmişdir.

Nümayəndə heyətinin başçısı, Pekin Xalq Siyasi Məşvərət Şurasının sədr müavini Zhang Jiaming vətənə qayıtdıqdan sonra Xəzər Universitetinə təşəkkür məktubu göndərmişdir. (*Səh.20-də*)





Then the guests took part in a musical-artistic event prepared by the teachers and students of the IB section of the school in the school's "Incichichayi" hall. Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, greeted the guests and gave general information about the school. Vice Chairman of Beijing People's Political Consultative Conference made a speech and expressed his good impression about the school.

Following the visit, Zhang Jiaming, the head of the delegation, and deputy chairman of the Beijing People's Political Consultative Conference, sent a letter of appreciation to Khazar University. (*P. 20*).



# "XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

**Azərbaycan Xəzər Universitetinin nəzdində**
**fəaliyyət göstərən "Dünya" məktəbinin**
**yaradıcısı cənab Hamlet İsaxanlıya**

**Hörmətli cənab Hamlet İsaxanlı!**

Məlumat üçün bildirirəm ki, Azərbaycana rəsmi səfəri başa vuran nümayəndə heyətimiz artıq Pekinə dönüb.Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən "Dünya" Məktəbinizə səfər zamanı Siz "Dünya" IB Məktəbinin Təşkilatı işlər üzrə Direktor müavini Rəşid Cəfərovla birlikdə nümayəndə heyətimizi layiqincə müşaiyət etdiniz.Fürsətdən istifadə edərək göstərdiyiniz diqqət və ehtirama görə Sizə və kollektivinizin hər bir üzvünə öz dərin təşəkkürümü ifadə edirəm!

Görüş ərəfəsində biz Sizinlə ətraflı fikir mübadiləsi apardıq. Təhsil ocağınızda mədəniyyət, idman və başqa fənlərin tədris prosesini diqqətlə izlədim.Sonra biz Sizinlə təhsil konsepsiyası, tədris planı, məktəblilərin fiziki, psixoloji hazırlığı ilə bağlı söhbət apardıq və əhəmiyyətli razılaşmalar əldə etdik.Məktəb kollektivinin məharətlə təqdim etdiyi bədii çıxışlarda Çin və Azərbaycan mədəniyyətlərinin oxşar elementləri məni və nümayəndə heyətimizi məmnun etdi.

Düşünürəm ki, bu səfər Sizin məktəblə Pekin məktəbi arasında dostluq əlaqələrinin qurulmasına əsaslı zəmin yaradaraq bütövlükdə Bakı və Pekin arasında qarşılıqlı təhsil mübadilələrinin aparılmasında mühüm rol oynayacaqdır.

Sizin üçün münasib bir vaxtda Pekinə səfər etməyinizi xahiş edirəm! Sizə və rəhbərlik etdiyiniz kollektivin hər bir üzvünə cansağlığı və gələcək fəaliyyətinizdə daha böyük uğurlara imza atmağı arzulayıram!

*Dərin hörmət və ehtiramla,*

**Zhang Jiaming,**
*Pekin Xalq Siasi Məşvərət Şurasının sədr müavini*

*13 noyabr 2023-cü il*

# LETTER OF THANKS TO KHAZAR UNİVERSİTY

**To the founder of the "Dunya"**
**school under Khazar University,**
**Mr. Hamlet Isakhanli**

**Dear Mr. Hamlet Isakhanli!**

I would like to inform you that our delegation, which has successfully concluded its official visit to Azerbaijan, has returned to Beijing. During our visit to the "Dunya school" affiliated with Khazar University, you, along with "Dunya" IB School Deputy Director for Organizational Affairs Rashid Jafarov, graciously accompanied our delegation. I extend my heartfelt appreciation to you and your team for the attention and respect shown.

Prior to our meeting, we engaged in in-depth discussions with you. I observed the teaching processes of culture, sports, and other subjects at your educational institution. Subsequently, our conversation covered the principles of education, the curriculum, and the physical and psychological preparation of students, leading to significant agreements. The artistic performances reflecting shared elements of Chinese and Azerbaijani cultures, skilfully presented by the school staff, were particularly pleasing to me and our delegation.

I believe that this visit will significantly contribute to mutual educational exchanges between Baku and Beijing, laying a strong foundation for establishing friendly relations between your school and Beijing schools. Please consider visiting Beijing at a time convenient for you! Wishing you and your team continued good health and greater success in your future endeavours!

Sincerely,

**Zhang Jiaming,**
*Vice Chairman of the Beijing People's Political Consultative Conference*

*November 13, 2023*

# "VİRTUAL GEMS" KOMANDASI "MƏHSUL SAHİBİ MARAFONU" MÜSABİQƏSİNİN QALİBİ OLDU

# "VIRTUAL GEMS" TEAM WINS "PRODUCT OWNER MARATHON" COMPETITION



Zeynal Mərdanlı, Rəvan Şərifov, Fariz Həsənli, Hamlet İsaxanlı, Şərqiyyə Rəhimli, Lalə Məhərrəmova

Noyabrın 7-də "Məhsul Sahibi Marafonu" müsabiqəsinin qalibləri bəlli olmuşdur. İki ay davam edən "Məhsul Sahibi Marafonu"müsabiqəsinə ölkə üzrə 8 universitetdən 16 komanda qatılaraq, irəli sürdükləri ideyalar üzərində çalışıblar. Pasha Bank və SUP.VC təşkilatçılığı ilə keçirilən yarışın ilkin mərhələsini uğurla keçən komandalar ikinci mərhələdə birincilik üçün mübarizəyə qatılıblar.

Beləliklə,16 komandadan yalnız 7-si final mərhələsində iştirak etmək hüququ qazana bilib. Xəzər Universitetinin "Virtual Gems" komandası da finalda iştirak edən 7 komandadan biri olub. Təbiət elmləri və mühəndislik fakültəsinin kompüter mühəndisliyi ixtisası üzrə tələbələri - Rəvan Şərifov, Şərqiyyə Rəhimli, Lalə Məhərrəmova və Zeynal Mərdanlıdan ibarət "Virtual Gems" komandası münsiflər heyətinin qarşısında öz layihələrini təqdim edərək, ən yüksək bal ilə qalib adını qazanıb. Qeyd edək ki, komanda heyəti müsabiqəyə səyahətlərdə yük daşınmasının optimallaşdırılması üzrə məhsulu hazırlayıb təqdim etmişdir.

Təbiət elmləri və mühəndsilik fakültəsinin Kopmüter mühəndsiliyi ixtisasının 3-cü kurs tələbələrindən ibarət Xəzər komandasının üzvlərinə mentorluğu Kompüter elmləri departamentinin müəllimi Fariz Həsənli etmiş və onları qələbəyə qovuşdurmuşdur.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı və rektor Dos. İradə Xəlilova qalib komanda heyəti ilə görüşərək, onları təbrik ediblər, komanda üzvlərinə gələcək müsabiqələrdə də uğurlar arzulayıblar.

On November 7, the results of the "Product Owner Marathon" competition were unveiled. A total of 16 teams from 8 universities nationwide in the two-month "Product Owner Marathon" competition and worked on their ideas. After successfully navigating the initial stage, organized by Pasha Bank and SUP.VC, only 7 teams earned the opportunity to compete for the top spot in the final stage.

Thus, only 7 out of 16 teams were able to win the right to participate in the final stage. "Virtual Gems" team of Khazar University was one of the 7 teams that participated in the final. The "Virtual Gems" team, consisting of Computer Engineering students of the School of Science and Engineering - Ravan Sharifov, Sharkiya Rahimli, Lala Maharramova and Zeynal Mardanli, presented their projects in front of the jury and won the title of winner with the highest score.Note that the team has developed and presented a product for the optimization of cargo transportation in trips to the competition.

Fariz Hasanli, a lecturer of the Department of Computer Science, mentored the members of the Khazar team consisting of 3rd year students of the Computer Engineering major of the School of Science and Engineering and led them to victory.

Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees Prof. Acad. Hamlet Isakhanli and Rector Assoc.Prof. Irada Khalilova met with the winning team members. They extended congratulations and wished the team continued success in upcoming competitions.



# XƏZƏR UNİVERSİTETİNİN MƏZUNU VÜQAR MUSTAFAYEV AZƏRBAYCAN RESPUBLİKASININ MÜDAFİƏ SƏNAYESİ NAZİRİ TƏYİN EDİLİB

# VUGAR MUSTAFAYEV, KHAZAR UNIVERSITY ALUMNUS , WAS APPOINTED MINISTER OF DEFENSE INDUSTRY OF THE REPUBLIC OF AZERBAIJAN

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 noyabr 2023-cü il tarixli sərəncamı ilə Vüqar Valeh oğlu Mustafayev Azərbaycan Respublikasının müdafiə sənayesi naziri təyin edilib.

Vüqar Mustafayev 1986-cı ildə Bakıda anadan olub. O, Dövlət İdarəçilik Akademiyasını, sonra isə Xəzər Universitetinin magistr proqramını bitirib.

"Certified İnternal Auditor ( CİA)" – Beynəlxalq Daxili Auditor və "İBM Data Science Specialization" – Data Elmi üzrə ixtisaslaşmış kvalifikasiyaya sahibdir.

Dünyanın nüfuzlu beynəlxalq audit şirkətlərindən olan "Ernst & Young CIS B. V" şirkətində baş mütəxəssis olaraq çalışıb. 2012 - 2014-cü illərdə Azerfon MMC-də Daxili Audit Departamentinin Direktoru kimi fəaliyyət göstərib.

2014-cü ildə PAŞA Holdinq MMC-də İcraçı direktorun müşaviri vəzifəsinə təyin

By the decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev dated November 18, 2023, Vugar Valeh Mustafayev was appointed the Minister of Defense Industry of the Republic of Azerbaijan.

Vugar Mustafayev was born in 1986 in Baku. He graduated from the Academy of Public Administration, pursued a master's program at Khazar University.

He has specialized qualification in "Certified Internal Auditor (CIA)" - International Internal Auditor and "IBM Data Science Specialization" - Data Science.

He worked as a senior specialist at Ernst & Young CIS B.V, a globally renowned international audit companies. In 2012-2014, he served as the Director of the Internal Audit Department at Azerfon LLC.

In 2014, he was appointed as an advisor to the Executive Director at PASHA Holding LLC. From that year, he worked as the chair-

olunub. Həmin ildən etibarən PAŞA Sığorta ASC və PAŞA Həyat Sığorta ASC-nin Təftiş Komissiyasının sədri olaraq fəaliyyət göstərib.

2021-ci ildə PAŞA Holdinq MMC-nin Türkiyə Respublikasındakı Nümayəndəliyinin rəhbəri, eyni zamanda İstanbul mərkəzli PDT və Gayrımenkul A. Ş. şirkətinin Müşahidə Şurasının sədri təyin edilib.

Azərbaycan Prezidentinin 15 Mart 2023-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini vəzifəsinə təyin olunmuşdu. Nazir təyinatınadək həmin vəzifədə idi.

Ailəlidir, iki övladı var.

Media vasitələri bu barədə xəbər yayımlayıb.

man of the Audit Commission of PASHA Insurance OJSC and PASHA Life Insurance OJSC.

In 2021, he became the head of PASHA Holding LLC's Representative Office in the Republic of Türkiye, as well as the Chairman of the Supervisory Board of the Istanbul-based PDT and A.Ş.Real Estate Company.

By the decree of the President of Azerbaijan dated March 15, 2023, he was appointed to the position of Deputy Minister of Defense Industry of the Republic of Azerbaijan. He was in that position until he was appointed as a minister.

He is married and has two children.

This appointment has been covered in the media.

*https://qafqazinfo.az/news/detail/yeni-nazir-kimdir-418745*

## XƏZƏR UNİVERSİTETİNİN TƏSİSÇİSİ, DİREKTORLAR VƏ QƏYYUMLAR ŞURASININ SƏDRİ PROF.AKAD. HAMLET İSAXANLININ TƏBRİKİ

## CONGRATULATIONS OF PROF. ACAD.HAMLET ISAKHANLI, FOUNDER OF KHAZAR UNIVERSITY, CHAIRMAN OF THE BOARD OF DIRECTORS AND TRUSTEES

Əziz məzunumuz Vüqar Mustafayev!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının müdafiə sənayesi naziri təyin olunmağınızı Xəzər Universitetinin kollektivi böyük sevinc və qurur hissi ilə qarşılamışdır. Bu münasibətlə sizi səmimi-qəlbdən təbrik edir, ən mühüm nazirliklərdən birinə rəhbərlik işinizdə uğurlar arzulayırıq.

*Xəzər Universitetinin kollektivi adından*
**Prof.Akad. Hamlet İsaxanlı**

We extend our warmest felicitations to our esteemed alumnus, Vugar Mustafayev, on his appointment as the Minister of Defense Industry of the Republic of Azerbaijan by the decree of President Ilham Aliyev. The entire Khazar University community is delighted by your achievement and wishes you great success in steering one of the nation's paramount ministries.

*On behalf of the Khazar University community*
**Professor Hamlet Isakhanli**

# NAİLƏXANIM TƏQAÜDÜNÜN NÖVBƏTİ TƏQDİMETMƏ MƏRASİMİ
# NEXT PESENTATION CEREMONY OF NAILEKHANIM SCHOLARSHIP





*Aygün Gardiner*

Artıq üç ildir ki, Nailəxanım Fondu milli mənşubiyyətindən asılı olmayaraq Xəzər Universitetinin magistratura və doktorantura pilləsində təhsil almaq istəyən istedadlı xanım namizədlərə tam maliyyələşmə prinsipi ilə təqaüd proqramı təklif edir.

Qeyd edək ki, Nailəxanım Fondu "Dünya" məktəbinin və Xəzər Universitetinin həmtəsisçisi Nailəxanım İsayevanın xatirəsini əbədiləşdirmək məqsədilə yaradılan qeyri-kommersiya təşkilatıdır. Görkəmli pedaqoq Nailəxanım İsayeva yorulmaz fəaliyyəti ilə hər iki qurumun inkişafına töhfə verən tanınmış ziyalı olub və bu Fond da məhz onun elmə, təhsilə olan hədsiz diqqət və qayğısının bariz nümunəsidir.

Bu il noyabrın 24-də Nailəxanım təqaüdünün təqdimetmə mərasimi "Dünya" Məktəbinin "İnciçiçəyi" zalında keçirildi. Tədbirdə hər iki təhsil ocağının rəhbərliyi, dövlət qurumlarının nümayəndələri, sənət adamları, o cümlədən Xalq artisti Alim Qasımov, Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Qo Min və Səfirliyin siyasi şöbəsinin müdiri Sü Tsin, eləcə də Meksikanın ölkəmizdəki səfiri Maria Victoria Romero Caballero və digər qonaqlar iştirak edirdilər.

Xəzər Universitetinin kamera orkestri qonaqları möhtəşəm bir ifa ilə salamladı, sonra isə

For the past three years, the Nailekhanim Foundation has been providing a fully-funded scholarship program for talented female candidates interested in pursuing master's and doctoral studies at Khazar University, irrespective of their nationality.

It's important to note that the Nailekhanim Foundation, established as a non-profit organization, aims to honor the memory of Nailekhanim Isayeva, the co-founder of Dunya School and Khazar University. Nailekhanim Isayeva, the distinguished educator, significantly contributed to the development of both institutions through her dedicated efforts. The foundation stands as a testament to her profound commitment to science and education.

On November 24 of this year, the ceremony for awarding the Nailekhanim scholarship took place in the "Incichichayi" hall of the "Dunya" School. The event was attended by the administration of both educational institutions, representatives from state organizations, cultural figures, including Alim Gasimov, the Ambassador of the People's Republic of China, Mrs. Guo Min, and the head of the political department of the Embassy, Mrs. Sue Tsin. Additionally, the Ambassador of Mexico to our country, Mrs. Maria Victoria Romero Caballero, and other distin-



*Azay Quliyev*

Azərbaycan Dövlət Himni səsləndirildi. Nailəxanım fondunun rəhbəri və Dünya məktəbinin direktoru, Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının üzvü və müşaviri Aygün Gardiner, millət vəkili Azay Quliyev, Meksikanın ölkəmizdəki səfiri xanım Maria Victoria Romero Caballero çıxış edərək, mərasimin əhəmiyyətindən danışdılar və builki qalib xoş arzularını ünvanladılar. "Dünya" məktəbi şagirdlərinin hazırladığı səhnəciklər və rəqslər,

guished guests were present.

The chamber orchestra of Khazar University opened the event with a splendid performance, followed by the rendition of the National Anthem of Azerbaijan. Aygün Gardiner, the head of the Nailekhanim Foundation and director of the Dunya School, the member and advisor of Khazar University Board of Directors and Trustees, MP Azay Guliyev, and Mrs. Maria Victoria Romero



*Maria Victoria Romero Caballero*



*Qo Min* *Sii Tsin*



*Monireh Bahrami*

eləcə də Nailə İsayevanın həyat hekayəsi, pedaqoji fəaliyyətindən bəhs edən videoçarxlar qonaqlarda xoş ovqat yaratdı.

Mövzusu qadınların təhsil və cəmiyyətdə rolu olan panel müzakirədə şagirdlər maraqlı diskussiya nümayiş etdirdilər və bir çox aktual məsələləri qonaqların diqqətinə çatdıra bildilər. Ötənilki qaliblərin iştirakı ilə hazırlanan və onların öz həyat hekayələrini paylaşdıqları video görüntülər də nümayiş olunandan sonra bu il qalib adını qazanan Monireh Bahrami`yə Nailəxanım



Caballero, the ambassador of Mexico to our country, shared thoughts on the ceremony's significance and extended their best wishes to this year's awardee.

In a panel discussion focused on the role of women in education and society, students engaged in a compelling conversation, bringing attention to various pertinent issues. Aygün Gardiner, the head of the Nailekhanim Foundation and educational center, awarded Monireh Bahrami the certificate for this year's winner. Monireh Bahrami expressed gratitude to the Foundation's management for the initiative and provided detailed information about herself to the participants.

The ceremony concluded with the students performing the song "My world," composed by Nailekhanim Isayeva



Fondunun və təhsil ocağının rəhbəri Aygün Gardiner tərəfindən sertifikat təqdim edildi. Monireh Bahrami də öz növbəsində Fondun rəhbərliyinə bu təşəbbüsə görə öz təşəkkürünü bildirdi və iştirakçılara özü haqda geniş məlumat verdi.

Mərasim Nailə xanım İsayevanın bəstələdiyi və şagirdlərin ifasında səslənən "Dünyam" mahnısı ilə sona yetdi.



*Alim Qasımov* *İsaxan İsaxanlı*




*Xəzər Universiteti Marketinq və kommunikasiya meneceri Xədicə İsmayılova, Nailəxanım təqaüdünün ötənilki qalibi Brilliant Windy Khairunnisa, Monireh Bahrami, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva*




Hamlet İsaxanlı



## XƏZƏR UNİVERSİTETİNDƏ MEHMET AKİF ERSOY`UN ANADAN OLMASININ 150 İLLİYİNƏ HƏSR OLUNMUŞ ELMİ SİMPOZİUM

## SCIENTIFIC SYMPOSIUM DEDICATED TO THE 150TH ANNIVERSARY OF THE BIRTH OF MEHMET AKIF ERSOY AT KHAZAR UNIVERSITY

Noyabrın 27-28-də Xəzər Universitetinidə Mehmet Akif Ersoy`un anadan olmasının 150 illiyinə həsr olunmuş elmi simpozium keçirildi. Xəzər Universiteti, TİKA (Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyi, TÜRKSOY (Uluslarararası Tütk Mədəniyyəti Təşkilatı), Ankara Sosial Elmlər Universiteti və Türkiyə Yazarlar Birliyinin təşkilatçılığı ilə keçirilən simpoziumda şəhidlərin xatirəsi sükutla yad edildi. Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin himnləri ifa olundu, "Çırpınırdı Qara dəniz" mahnısı videoformatda təqdim edildi.

Açılış mərasimində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, Türkiyə Yazarlar Birliyinin sədri, Ankara Sosial Emlər Universitetinin rektoru Prof.Dr. Musa Kazım Arican, Milli Məclisin deputatı Fazil Mustafa, Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova, TÜRKSOY Baş katibliyindən Cavid Mövsümlü, TİKA koordinatoru Fatih Yılmaz açılış nitqi söylədilər. Çıxışlarda Mehmet Akif Ersoy`un Türk xalqının milli mübarizəsinin mənəvi cəbhəsinin gücləndirilməsində böyük rolu,

On November 27-28, Khazar University hosted a scientific symposium commemorating the 150th anniversary of Mehmet Akif Ersoy's birth. The event, organized by Khazar University, TİKA (Ministry of Culture and Tourism of the Republic of Türkiye, TURKSOY (International Organization of Turkish Culture), Ankara University of Social Sciences and Writers Union of Türkiye) paid tribute to the martyrs in a solemn moment. The video presentation of "The Black Sea was fluttering" was a notable part of the symposium.

Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and chairman of its Board of Directors and Trustees, Prof.Dr. Musa Kazim Arican, chairman of the Turkish Writers ' Union, rector of Ankara Social Sciences University, Fazil Mustafa, MP, Assoc. Prof. Irada Khalilova, rector of Khazar University, Javid Movsumlu from TURKSOY Secretariat, Fatih Yilmaz, Tika coordinator delivered opening speeches at the opening ceremony. The speeches highlighted Mehmet Akif Ersoy's significant role in bolstering the moral front during the national struggle of the Turkish people, the acceptance of his



*Musa Kazım Arıcan*



*Fazil Mustafa*

yazdığı "İstiqlal marşı"nın Türkiyə Böyük Millət Məclisi tərəfindən Türkiyənin Milli Himni kimi qəbil edildiyi, millət vəkili kimi fəaliyyəti qeyd olundu.

Türkiyənin Yazarlar Birliyindən Mehmet



*İradə Xəlilova*



*Fatih Yılmaz*

Doğanın "Dövrünü aşan böyük şair, fikir və mübarizə adamı" adlı məruzəsinin dinlənilməsi ilə konfrans bugünkü işini başa çatdırdı.

Sonda Prof.Dr. Musa Kazım Arican Prof.Akad, Hamlet İsaxanlı, Fazil Mustafa, İradə Xəlilova və Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyliyə hədiyyə təqdim etdi.

Noyabrın 28-də simpozium işini davam etdirdi.

"Independence March" as the Turkish National Anthem, and his contributions as a deputy.

The symposium's first day concluded with a speech by Mehmet Doghan from the Writers' Union of Türkiye titled "The great poet who exceeded the era, the man of thought and struggle."

In the end, Prof.Dr. Musa Kazım Arican presented a gift to Prof. Acad. Hamlet Isakhanli, Fazil Mustafa, Irade Khalilova and Alovsat Amirbeyli, director of Public Relations and Media of Khazar University.

On November 28, the symposium continued its work with reports from scientists and specialists




Cavid Mövsümlü



Mehmet Akif

Azərbaycan və Türkiyə alim və mütəxəssisləri – Dr. Mehmet Doğan, Peof. Bədirxan Əhmədov, Prof.Dr.Fazil Gökçek, Prof. Dr. Zeki Taştan, Prof. Dr. Ergün yıldırım, Prof. Dr. İsmail Güleç, Prof. Dr. Ridvan Canım, Prof. Dr. Bilal Kemikli, Prof.Dr. Turan Karataş, Prof. Dr.Caner Arabacı, Dos. Dilbər Zeynalova, Doç.Dr. Mühammet Enes Kala, Dr. Söhrab Mustafayev, Dr. Nazif Öztürk, Dr. Hayrettin Güler, Sayman Aruz, Mustafa Özçelik, Ali Tokmak və Mehmet Kurtoğlu`nun Mehmet Akif Ersoy`un həyat və yaradıcılığı

from Azerbaijan and Türkiye – Dr. Mehmet Doghan, Prof. Badirkhan Ahmadov, Prof.Dr. Fazil Gokchek, Prof.Dr. Zeki Tashtan, Prof.Dr. Ergun Yıldım, Prof.Dr. Ismail Gulech, Prof.Dr. Ridvan Janım, Prof.Dr. Bilal Kemikli, Prof.Dr. Turan Karatash, Prof.Dr. Janer Arabajı, Asso.Prof. Dilbar Zeynalova, Assoc.Dr. Muhammad Enes Kala, Dr. Sohrab Mustafayev, Dr. Nazif Ozturk, Dr. Hayrettin Guler, Sayman Aruz, Mustafa Ozchelik, Ali Tokmak and Mehmet Kurtoghlu's on the life and work of Mehmet Akif Ersoy That



ilə əlaqədar müxtəlif mözularda məruzələri dinlənidi.

Həmin gün axşam Xəzər Universitetinin Mərkəz kampusunda Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində simpozium iştirakçılarına konsert proqramı təqdim olundu. Xəzər Universiteti Kamera Orkestri (bədii rəhbər Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, tanınmış pianoçu Zülfiyyə Sadıqova), universitetin Qızlardan ibarət Rəqs Ansamblı (bədii rəhbər Səbinə İsmayılova) və solistlərin - Xəzər Universitetinin müəllimləri Məhsəti Cabbarova və Ramin Qarayevin iştirakı ilə Azərbaycan, türk və dünya musiqisindən nümunələr səsləndi, rəqslər nümayiş olundu.





evening, a concert program was presented to the participants of the symposium at the Fikret Amirov Conference-Concert Center on the Central campus of Khazar University. Samples of Azerbaijani, Turkish and world music were played and dances were performed with the participation of the Khazar University Chamber Orchestra (artistic director, head of the Khazar University Music and Art Department, honored teacher, well-known pianist Zulfiya Sadigova), the university's Girls' Dance Ensemble and soloists.





Eyüp Sarıtaş

# "ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN NÖVBƏTİ MƏŞĞƏLƏSİ

# NEXT SESSION OF " ASSEMBLY OF SCIENCE AND ART "

Noyabrın 30-da Xəzər Universitetinin ənənəvi "Elm və Sənət Məclisi"nin 81-ci məşğələsi keçirildi. Məşğələni giriş sözü ilə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı açaraq, Türkiyə İstanbul Üniversitetinin professoru Eyüp Sarıtaş haqqında iştirakçılara ətraflı məlumat verdi və görkəmli alimin çin mənbələrindəki araşdırmalarından danışdı. Sonra Eyüp Sarıtaş "Çin mənbələrinə görə qədim türk tarixi və mədəniyyəti" mövzusunda geniş və maraqlı məruzə ilə çıxış etdi.

Məruzədən sonra professor məşğələdə iştirak

On November 30, Khazar University hosted its 81st "Assembly of Science and Art." The session, inaugurated by Acad. Prof. Hamlet Isakhanli, the university's founder and chairman of the Board of Directors and Trustees, commenced with an introduction. He provided detailed information about Eyup Saritash, a professor from Istanbul University, Türkiye, and delved into the renowned scientist's research in Chinese sources. Subsequently, E. Saritash delivered a comprehensive and captivating lecture on "Ancient Turkish history and culture according to Chinese sources."



edən Azərbaycanın müxtəlif təhsil və elm mərkəzlərinin alimlərinin və tələbələrin suallarını cavablandırdı. Sualları Eyüp Sarıtaş`a Şahin Fazil (AMEA Tarix İnstitutu), Nərgiz Əliyeva (Milli Azərbaycan Tarixi Muzeyi), Hamlet İsaxanlı, Roza Arazova və Kəmalə Mustafayeva (Xəzər Universiteti), Bəhlul İbrahimli və İsmayıl Umudlu (AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu), Solmaz Tohidi (AMEA Şərqşünaslıq İnstitutu), Elçin Məmmədli ("Təzadlar" qəzeti) və digər şəxslər ünvanladılar.



*Hamlet İsaxanlı*

Məşğələ keçirilən salonda universitetin xalçaçı-rəssamı Vəfa Əlizadənin yaradıcılıq nümunələri olan xalçalar və əl işlərindən ibarət digər əşyalar nümayiş etdirildi. Sərgi iştirakçıların böyük marağına səbəb oldu.



*Şahin Fazil*



*Bəhlul İbrahimli*



*Elçin Məmmədli*

Following the lecture, Professor Saritash engaged in a Q&A session, addressing inquiries from scientists and students representing various educational and scientific institutions in Azerbaijan. Notable individuals posing questions included Shahin Fazil (Institute of History of ANAS), Nargiz Aliyeva (National Museum of Azerbaijan History), Hamlet Isakhanli, Roza Arazova, and Kamala Mustafayeva (Khazar University), Bahlul Ibrahimli, and Ismayil Umudlu (Institute of Archaeology, Ethnography, and Anthropology of ANAS), Solmaz Tohidi (Institute of Oriental Studies of ANAS), Elchin Mammadli ("Tazadlar" newspaper), among others.

The venue showcased carpets and handmade items by the university's carpet maker-artist, Vafa Alizade, garnering significant interest from participants.

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ BEYNƏLXALQ KONFRANSDA

Oktyabrın 24-də AMEA M. Füzuli adına Əlyazmalar İnstitutunda Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Əlyazmalar kitabı Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələr kontekstində" adlı Beynəlxalq elmi-nəzəri konfrans keçirilmişdir.

Konfransda Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dos. Xatirə Yusifova "Əbdi bəy Qarahisarinin yaradıcılığında sənətkar və şairlər" mövzusunda məruzə etmişdir.

## FACULTY MEMBER FROM LANGUAGES AND LITERATURES DEPARTMENT AT INTERNATIONAL CONFERENCE

On October 24, an international scientific-theoretical conference commemorating the 100th anniversary of the Republic of Türkiye took place at the Institute of Manuscripts named after M. Fuzuli of ANAS. During the conference, Assoc. Prof. Khatira Yusifova, a faculty member from Khazar University's Department of Languages and Literatures, delivered a presentation on "Artists and poets in the work of Abdi bey Garahisari."

## "AZƏRBAYCANDA AŞIQ MÜHİTLƏRİ VƏ ONLARIN GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ" MÖVZUSUNDA İNTEQRATİV DƏRS

## INTEGRATIVE LESSON ON "ASHUG ENVIRONMENTS IN AZERBAIJAN AND THEIR PROMINENT REPRESENTATIVES"



Oktyabrın 26-da Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dos. Aynur Qəzənfərqızı Atatürk Mərkəzi Xarici əlaqələr şöbəsinin müdiri. Dr. Nazir Əhmədli ilə birgə "Azərbaycanda aşıq mühitləri və onların görkəmli nümayəndələri" mövzusunda inteqrativ dərs keçdilər.

On October 26, an integrative lesson on " Ashug environments in Azerbaijan and their prominent representatives" was conducted by Assoc.Prof. Aynur Ghazanfargizi, a lecturer from the Department of Languages and Literatures, and Dr. Nazir Ahmadli, the head of the Foreign Relations Department at the Atatürk Center.

In the lesson's introduction, Aynur Ghazanfargizi

Aynur Qəzənfərqızı dərsin giriş hissəsində Nazir Əhmədli haqqında geniş məlumat verdi. Onu arxiv sənədlərinə, faktlara əsaslanaraq aşıq yaradıcılığına aid araşdırma aparan tədqiqatçı kimi təqdim etdi.

Sonra Nazir Əhmədli çıxış edərək, indiyədək folklorşünaslıqda aşıqların həyatının əsasən onlar haqqında qoşulmuş dastanlardan öyrənildiyi, lakin kameral təsvirlər sayəsində müəyyən qədər gerçəklərin əldə olunduğu barədə məlumat verdi. Alim çıxışının davamında kameral təsvirlərin yazılma səbəbini aydınlaşdıraraq, özünün araşdırmalarından geniş bəhs etdi; bildirdi ki, aşıqların doğum və ölüm tarixləri ən azı 30-40 il fərqlə təqdim olunub. Alim, həmçinin, Aşıq Ələsgər yaradıcılığından da bəhs edərək, heç bir ciddi əsas olmadan onun adından çap olunmuş şeirlərdən söz açdı, müqayisələr apardı, Aşıq Ələsgər və Aşıq Alı deyişməsindən danışdı. Aşıq Ələsgərdən qoşmalar söylədi, tələbələrin suallarını cavablandırdı və müzakirələrdə aktiv iştirak edən tələbələrə öz kitablarını hədiyyə etdi.

Sonda Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova aşıq yaradıcılığının öyrənilməsi və təbliğində xidmətlərinə və inteqrativ dərs layihəsində iştirak etdiyinə görə qonağa öz təşəkkürünü bildirdi.

## "NEOLİT DÖVRÜNDƏ ANADOLUDAKI YAŞAYIŞ MƏSKƏNLƏRİ ÖRNƏKLƏRİNİN İNCƏLƏNMƏSİ" MÖVZUSUNDA SEMİNAR

Oktyabrın 27-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə "Neolit dövründə Anadoludakı yaşayış məskənləri örnəklərinin incələnməsi" mövsusunda elmi seminar keçirilmişdir. Məruzəçi - Haliç Universitetinin (Türkiyə, İstanbul) Memarlıq fakültəsinin əməkdaşı, arxeoloji ərazilərdə idarəetmə planları və YUNESKO meyarları mövzusunda tədqiqat aparan Burcu Funda Ayberkin Anadoludakı Neolit dövrü yaşayış yerlərinin memarlıq xüsusiyyətlərinə dair geniş məlumat vermişdir.

Seminarda departamentin əməkdaşları - Dr. Yaqub Məmmədov, elmi işçilər Orxan Zamanov, Ülviyyə Səfərova və Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi, Tarix-coğrafiya müəllimliyi ixtisasında təhsil alan II-III kurs tələbələri iştirak etmişdir. Sonda məruzə ətrafında mütəxəssislərin və tələbələrin iştirakı ilə müzakirə aparılmışdır.

shared in-depth information about Nazir Ahmadli, portraying him as a researcher dedicated to studying Ashug culture through archival documents and factual evidence.

Following the introduction, Nazir Ahmadli delivered a speech, noting that the study of the lives of Ashiqs in folklore had traditionally relied on epic narratives. However, thanks to written descriptions, some facts have been obtained. Continuing his speech, the researcher elucidated the purpose behind written descriptions and provided detailed insights into his studies. He mentioned that the dates of birth and death of Ashiqs were presented with a difference of at least 30-40 years. He further delved into the works of Ashig Alasgar, addressing the publication of poems attributed to him without substantial basis. Drawing comparisons, he discussed the exchange between Ashig Alasgar and Ashig Ali. During the session, Ashig recited poems by Alasgar, responded to students' questions, and generously presented his books as gifts to actively participating students in the discussions.

Concluding the session, Assoc. Prof. Dilbar Zeynalova, the head of the Department of Languages and Literatures, extended her gratitude to the guest for their valuable contributions to the exploration and promotion of Ashug culture. She also appreciated their involvement in the integrative lesson project.

## A SEMINAR ON "REFINING EXAMPLES OF SETTLEMENTS IN ANATOLIA DURING THE NEOLITHIC PERIOD" HELD

On October 27, the History and Archaeology Department of Khazar University organized a scientific seminar on "Refining Examples of Settlements in Anatolia during the Neolithic Period." The speaker, Burcu Funda Ayberkin, an associate of the Faculty of Architecture at Haliç University (Istanbul, Turkiye), specializing in research on management plans in archaeological areas and UNESCO criteria, provided comprehensive information on the architectural features of Neolithic settlements in Anatolia.

During the seminar, department members including Dr. Yagub Mammadov, scientific researchers Orkhan Zamanov, and Ulviyya Safarova, along with second and third-year students from the School of Humanities, Education, and Social Sciences specializing in History Education and History/Geography Education, actively participated. The session concluded with a discussion involving both experts and students focusing on the presented report.


Rövşən Abdullaoğlu

# AZƏRBAYCAN NƏŞRİYYATLARI ASSOSİASİYASININ ƏMƏKDAŞLARI XƏZƏR UNİVERSİTETİNDƏ

# REPRESENTATIVES FROM AZERBAIJAN PUBLISHERS ASSOCIATION VISIT KHAZAR UNIVERSITY

Oktyabrın 31-də Azərbaycan Nəşriyyatları Assosiasiyası (ANA) Xəzər Universitetində II Payız Oxu Marafonu ilə bağlı məlumat sessiyası keçirib. ANA-nın kordinatoru Fizzə Məmmədovanın verdiyi maraqlı bir məlumat tələbələrin diqqətini cəlb edib. Məlum olub ki, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Təhsilin İnkişafı Fondunun keçirdiyi Oxu marafonunda iştirak etmək istəyən tələbələr 3 ay ərzində (1 0ktyabr 2023-1 yanvar 2024) 8 kitab oxuyaraq, imtahan və müsahibədən keçəndən sonra 10 nəfər finalçı arasında pul mükafatı qazanmaq şansına malik ola bilərlər.Təbii ki, məqsəd tələbələrdə kitaba olan məhəbbəti artırmaqdır.

Sessiyanın davamı olaraq tanınmış yazıçı Rövşən Abdullaoğlu da çıxış edərək, qələmə aldığı "Koramal" kitabı barədə iştirakçılara geniş məlumat verib və onların suallarını cavablandırıb.

Sonra aktyor Əhliman Ərşadlı və teatrşünas Afaq Ağayeva "Koramal" kitabından hazırladıqları maraqlı məqamları tələbələr üçün səsləndiriblər və sonda kitab əsasında lentə alınmış qısa videoparçalar təqdim olunub.

On October 31, the Azerbaijan Publishers Association conducted an information session on the II Autumn Reading Marathon at Khazar University. The students were engaged and captivated by the interesting information shared by the association coordinator Fizza Mammadova during the session. It was revealed that students expressing interest in joining the Reading Marathon organized by the Education Development Fund of the Ministry of Science and Education of the Republic of Azerbaijan have an opportunity to compete for a cash prize among the top 10 finalists. To qualify, participants need to read 8 books within the three-month period from October 1, 2023, to January 1, 2024, and successfully complete an exam and interview. The primary objective is to foster a greater appreciation for books among the students.

Following the session, the renowned writer Rovshan Abdullaoglu delivered a speech, offering participants in-depth insights into his book "Koramal" and answeared their questions.

Subsequently, actor Ahliman Arshadli and theater critic Afag Aghayeva performed captivating excerpts from the book for the students. The session concluded with the presentation of short video clips created based on the content of the book.


Əhliman Ərşadlı Afaq Ağayeva

# "XƏZƏR"İN ƏMƏKDAŞI KARYERA MƏRKƏZLƏRİNİN II STRATEJİ İNKİŞAF KONFRANSINDA

# KHAZAR UNIVERSITY EMPLOYEE AT THE II STRATEGIC DEVELOPMENT CONFERENCE OF CAREER CENTERS

Oktaybrın 31 - də Xəzər Universitetinin Karyera Mərkəzinin assistenti Mustafa Həsənli Bakı Ali Neft Məktəbində (BANM) keçirilən Karyera Mərkəzlərinin II Strateji İnkişaf Konfransında iştirak edib.

Konfransın ilk yarısı Məzunların Məşğulluq Reytingi platformasının təqdimatı haqqında olub. Dövlət Məşğulluq Agentliyinin Əmək bazarının təhlili departamentinin şöbə müdiri Bəhman Hüseynli platforma haqqında geniş məlumat verib. Qeyd edib ki, platformanın əsas məqsədi ali məktəblərin əmək bazarı ilə mütəmadi əlaqəsini təmin etməkdir.

Dövlət Məşğulluq Agentliyinin Mərkəzi karyera filialının müdiri Toğrul Ələkbərov "Karyera mərkəzlərinin standartları", "Karyera mərkəzləri hansı xidmətləri göstərməlidir?", "Karyera mərkəzlərinin idarə olunması" mövzularında tövsiyələrini bildirib.

Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli daim inkişaf edən əmək bazarına uyğunlaşma vasitəsi kimi məlumatların toplanmasının vacibliyini vurğulayıb.

Qonaq məruzəçi Umur Çalıkoğlu karyeranı təşkil edən dəyişkən paradiqmalara diqqət çəkərək, karyera mərkəzlərinin tələbələrin istiqamətləndirilməsində mühüm rolundan bəhs edib.

ADA Universitetinin Karyera mərkəzinin meneceri Təranə Aslanova diqqəti sistematik fəaliyyət planlarına, süni intellektin inteqrasiyasına və qlobal korporasiyalarla tərəfdaşlıq əlaqələrinin gücləndirilməsinə yönəldib. Bu tədbirlər tələbələri rəqabətli iş bazarında uğur qazanmaq üçün tələb olunan əsas bacarıqlarla təchiz etməkdən ötrü çox vacibdir.

Konfransda iş axtaranların potensial işəgötürənlərlə problemsiz əlaqəsini asanlaşdıran qabaqcıl texnologiya nümayiş etdirilib. Bu innovativ yanaşma tələbələr üçün iş axtarışı prosesini sadələşdirir, təhsildən peşəkar dünyaya keçidi daha səmərəli edir.

Konfrans ali təhsildə karyera mərkəzlərinin əhəmiyyətini və tələbələrin uğurlu gələcəklərinin formalaşmasında əvəzsiz rolunu bir daha nəzərə çatdırıb.

On October 31, Khazar University's Career Center assistant Mustafa Hasanli participated in the II Strategic Development Conference of Career Centers held at the Baku Higher Oil School (BHOS).

The initial part of the conference focused on introducing the Graduate Employability Rating platform. Bahman Huseynli, head of the Department of Labor Market Analysis of the State Employment Agency, provided comprehensive details about the platform. He emphasized that the platform's primary objective is to establish consistent communication between higher education institutions and the labour market.

The head of the Central Career Branch of the State Employment Agency, Togrul Alakbarov, gave his recommendations on "Standards of career centers", "What services should career centers provide?", "Management of career centers".

Advisor to the Minister of Science and Education Nijat Mammadli emphasized the importance of data collection as a means of adapting to the constantly developing labor market.

The guest speaker Umur Chalıkoghlu highlighted shifting paradigms within careers and discussed the crucial role that career centers play in guiding students.

Tarana Aslanova, ADA University Career Center Manager prioritized strategic action plans, incorporating artificial intelligence, and fostering strong partnerships with global corporations. These initiatives are vital in preparing students with essential skills needed to excel in a competitive job market.

The conference showcased cutting-edge technology that facilitates seamless communication between job seekers and potential employers. This innovative approach simplifies the job search process for students, enhancing the transition from education to the professional realm.

Once more, the conference underscored the significance of career centers in higher education, emphasizing their indispensable role in shaping students' successful futures.

## TÜRKİYƏ SƏFİRLİYİNİN ƏMƏKDAŞLARI "XƏZƏR"DƏ

## REPRESENTATIVES FROM THE TURKISH EMBASSY VISIT KHAZAR UNIVERSITY



*Ali Aköz, Yurdagül Aydoğan, Hamlet İsaxanlı, İradə Xəlilova, Məhəmməd Nuriyev*

Oktyabrın 31-də Xəzər Universitetində Türkiyənin Azərbaycandakı səfirliyinin əməkdaşları ilə görüş keçirildi.

Görüşdə səfirliyin təhsil müşaviri Yurdagül Aydoğan, müşavirliyin əməkdaşı Ali Aköz, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, universitetin rektoru İradə Xəlilova, Tədris işləri üzrə prorektor Prof. Məhəmməd Nuriyev, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, Tarix və arexologiya departamentinin müdiri Telman Nüsrətoğlu, Sənət və texnologiya yüksək təhsil

On October 31, Khazar University hosted a meeting with the staff of the Turkish Embassy in Azerbaijan.

Yurdagül Aydoğan, the embassy's educational adviser, Ali Aköz, the employee of the advisory, the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanlı, rector of the University Irada Khalilova, vice-rector for Educational Affairs Prof. Mahammad Nuriyev, director of Public Relations and Media Alovsat Amirbeyli, director of the Quality Assurance Center Lyudmila Sotova, dean of the School of Economics and Management Jeyhun Mammadov, dean of the School of Science and Engineering Fakhranda Efendiyeva, head of the Department of History and Archeology Telman Nusratoghlu, deputy dean of the Graduate School of Science, Art and

fakültəsinin dekan müavini Məhəmməd Eldarov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak etmişdir.

Görüş zamanı Fatimə Vəliyeva Xəzər Universiteti və fəaliyyəti barədə təqdimat nümayiş etdirmişdir. Müzakirə mövzusu qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi olmuşdur. Nailəxanım Mədəniyyət Mərkəzində səfirliyin əməkdaşlarına görkəmli pedaqoq Nailəxanım İsayeva və mərkəzin fəaliyyəti haqqında məlumat verilmişdir.

Sonda tərəflər hədiyyə təqdim etmişlər.



Technology Mahammad Eldarov, head of International Relations Department Fatima Valiyeva participated in the meeting.

At the meeting, Fatima Valiyeva delivered a presentation on Khazar University and its ongoing initiatives, with a particular focus on fostering mutual relations. Additionally, at the Nailekhanim Culture Center, embassy personnel received information about Nailekhanim Isayeva, a prominent educator, and the center's activities. The meeting concluded with an exchange of gifts between the parties.



*Əlövsət Əmirbəyli*

## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI "UZUN HƏSƏN - AĞQOYUNLU DÖVLƏTİNİN HÖKMDARI" SƏRGİSİNİN AÇILIŞINDA

Noyabrın 1-də Heydər Əliyev Mərkəzində "Uzun Həsən - Ağqoyunlu dövlətinin hökmdarı" sərgisinin açılışı olub. Tədbirdə Xəzər Universiteti Tarix və arxeologiya departamentinin dosenti, Dr. Roza Arazova, Dr. Yaqub Məmmədov, müəllimlər Orxan Zamanov Rəşad Mustafa, və Kəmalə Mustafeyeva iştirak etmişlər.

Sərgidə görkəmli dövlət xadimi və sərkərdə Uzun Həsənin həyatına və yaratdığı Ağqoyunlu dövlətinə dair bir çox nadir eksponatlar, o cümlədən İstanbuldakı Hərb Muzeyində saxlanılan və indiyə qədər Türkiyə hüdudlarından kənara çıxarılmayan tarixi nümunələr nümayiş olunur. Bu eksponatlar ilk dəfə Azərbaycanda təqdim edilir. Sərgi 2024-cü il yanvarın 17-dək davam edəcək.

## KHAZAR UNIVERSITY STAFF MEMEBRS AT THE OPENING CEREMONY OF THE EXHIBITION SHOWCASING "UZUN HASAN - THE RULER OF THE AQQOYUNLU DYNASTY"

On November 1, Khazar University's History and Archaeology Department, including Dr. Roza Arazova, Dr. Yagub Mammadov, and lecturers Orkhan Zamanov, Rashad Mustafa and Kamala Mustafeyeva, actively participated in the opening of the exhibition "Uzun Hasan - The Ruler of the Aqqoyunlu Dynasty" at the Heydar Aliyev Center.

The exhibition showcases numerous rare artefacts regarding the life of the remarkable statesman and general, Uzun Hasan, as well as the Aqqoyunlu state he founded. These include historical items from the Military Museum in Istanbul, which, until now, have not been exhibited outside of Turkiye. This marks the first presentation of these artefacts in Azerbaijan. The exhibition is set to run until January 17, 2024.



*Rəşad Mustafa, Yaqub Məmmədov*

## İRAQ TÜRKMANLARI İLƏ GÖRÜŞ

## MEETING WITH IRAQI TURKMENS



*Şemsettin Kuzeci, Dilbər Zeynalova, Mehmet Ömer Kazancı*

Noyabrın 1-də Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə İraq Türkman Dostluq Dərnəyinin başqanı Şemsettin Kuzeci, Süleymaniyə və Bağdad universitetlərinin professoru Mehmet Ömer Kazancı ilə tələbələrin görüşü keçirilib. Tədbiri departamentin müdiri Dos. Dilbər Zeynalova açaraq, İraq türkmanları və Azərbaycan türklərinin tarixi kökləri barədə məlumat verib.

Şemsettin Kuzeci çıxışında İraq türkmanlarının siyasi-iqtisadi-mədəni durumu haqqında geniş bəhs edib. Mehmet Ömer Kazancı isə İraq Türkman ədəbiyyatının və dilinin keçdiyi tarixi yol haqqında danışıb. AMEA Folklor İnstitutunun Xarici əlaqələr bölməsinin müdiri Əli Şamil öz çıxışında tələbəlik illərində İraqdan gəlmiş Şakir Sabir Zabit ilə görüşündən söz açıb və belə canlı görüşlərin gənclər üçün önəmini vurğulayıb. Tələbələrin aktiv iştirakı tədbiri daha da maraqlı edib.

Görüşdə, həmçinin, Tiranadan ölkəmizə tədqiqat aparmaq üçün gəlmiş Albaniya - Azərbaycan Dostluq Dərnəyinin başqanı Entela Muço, ADPU-nun müəllimi Dr. Reyhan Rəsul, Dünya Türk Ocaqları Birliyinin rəhbəri Elmira Hüseynova, şair Alim Kəngərli, "Dünya" məktəbinin kitabxana müdiri Dr. Mədinə Karahanlı, Dillər və ədəbiyyatlar departamentinin müəllimləri Dos. Aynur Qəzənfərqızı, Dr. Ülvi Babasoy, Dr. Zəminə Ziyayeva iştirak ediblər.

Tədbirin sonunda Dos. Dilbər Zeynalova qonaqlara Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof. Akad. Hamlet İsaxanlının "Mənim Qarabağım və ya Qarabağ düyünü" adlı kitabını hədiyyə edib. Qonaqlar da öz növbələrində həm Dos. Dilbər Zeynalovaya, həm də tələbələrə öz kitablarını bağışlayıblar.

On November 1, the Department of Languages and Literatures hosted a meeting with students, featuring the head of the Iraqi Turkmen Friendship Association, Shemsettin Kuzeci, and Professor Ömer Mehmet Kazanci from Suleymaniye and Baghdad universities. The event, initiated by the department head Assoc. Prof. Dilbar Zeynalova, commenced with an introduction and an informative session detailing the historical connections between Iraqi Turkmen and Azerbaijani Turks.

During his address, Shamsettin Kuzeci provided a comprehensive overview of the political, economic, and cultural landscape of Iraqi Turkmen. Mehmet Ömer Kazancı delved into the historical trajectory of Iraqi Turkmen literature and language in his presentation. Ali Shamil, the head of the Department of Foreign Relations at ANAS Folklore Institute, shared insights about his encounter with Shakir Sabir Zabit, who came from Iraq during his student years, underscoring the significance of such live interactions for young individuals. The active participation of students further enhanced the overall engagement of the event.

During the meeting, key participants included Entela Mucho, the head of the Albania-Azerbaijani Friendship Association, who arrived from Tirana for research in our country, ASPU faculty member Dr. Reyhan Rasul, Elmira Huseynova, the head of the World Association of Turkish Hearths, poet Alim Kangarli, Dr. Madina Karahanli, the director of the library at "Dunya" school, and faculty members from the Department of Languages and Literatures, including Assoc.Prof. Aynur Gazanfargizi, Dr. Ulvi Babasoy, Dr. Zemina Ziyayeva.

At the event's conclusion, Assoc. Prof. Dilbar Zeynalova presented the guests the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, Prof. Acad Hamlet Isakhanli's book " My Karabakh or Karabakh knot" as a gift. The guests, in their turn, graciously contributed their books to Assoc. Prof. Dilbar Zeynalova and the attending students.




# TƏLƏBƏLƏRİN QALA SƏFƏRİ

# STUDENTS` GALA VISIT

Noyabrın 3-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin ikinci və üçüncü kurs tələbələrinin fənn müəllimi Orxan Zamanovun təşkilatçılığı və "İçərişəhər" Muzey Mərkəzinin" direktor müavinləri Nahidə Bəkirova və Fidan Seyidovanın dəstəyi ilə "Qala" Dövlət Tarix Etnoqrafiya Qoruğuna ekskursiyası təşkil edildi.

Tarix-coğrafiya müəllimliyi və tarix müəllimliyi ixtisasları üzrə təhsil alan tələbələrdən ibarət qrupa bələdçi tərəfindən açıq səma altında nümayiş olunan eksponatlarla yaxından tanış olmaq və onlar barədə geniş məlumat almaq imkanı yaradıldı.

Qoruğa səfər tələbələr tərəfindən maraqla qarşılandı, suallar və müzakirələr ilə keçən ekskurs-dərs xatirə fotoları ilə yekunlaşdı.

On November 3, second and third year students of the School of Humanities, Education and Social Sciences of Khazar university arranged an excursion to the "Gala" State Historical and Ethnographic Reserve with the support of subject instructor Orkhan Zamanov and deputy directors of the" Icherisheher "Museum Center Nahida Bekirova and Fidan Seyidova.

The excursion involved a group of students majoring in history-geography education and history education. Under the guidance of a tour guide, the students explored outdoor exhibits, gaining detailed insights.

The visit sparked student interest, concluding the educational excursion with memorable photos, questions, and discussions.

## XƏZƏR UNİVERSİTETİNDƏ ÇİN DİLİNİN TƏDRİSİ PROBLEMLƏRİNƏ AİD GÖRÜŞ

## MEETING ON CHALLENGES IN TEACHING CHINESE LANGUAGE AT KHAZAR UNIVERSITY

Noyabrın 3-də Dillər və ədəbiyyatlar departamentində Çin dilinin tədrisi problemləri müzakirə olunmuşdur. Departamentin müdiri Dos. Dilbər Zeynalova universitetin müxtəlif ixtisaslarında bu dilin tədrisi prosesində qarşıya çıxan problemlərdən və onların həlli yollarından söz açmışdır.

Çin dili müəllimləri Wan Dan, Wei Mengjie, Yin Qingai, Zhang Jiaojiao tələbələrin fənnə marağından, həmçinin tədris prosesində üzləşdikləri çətinliklərdən bəhs etmişlər.

Görüşün sonunda departamentdə digər xarici dil (alman, fransız) müəllimləri ilə tədris metodikası ətrafında təcrübə mübadiləsinin aparılması və tədrisin vasitə, forma, metodlarının təkmilləşdirilməsi qərara alınmışdır.

On November 3, the problems of teaching the Chinese language were discussed in the Department of Languages and Literatures. The head of the department Assoc. Prof. Dilbar Zeynalova, highlighted the issues faced during the teaching of this language across different majors at the university and proposed viable solutions.

In the meeting, Chinese language instructors Wan Dan, Wei Mengjie, Yin Qingai, and Zhang Jiaojiao shared perspectives on students' engagement with the subject and discussed the difficulties faced during the teaching process. The meeting concluded with a decision to facilitate the exchange of experiences among teachers of other foreign languages within the department (such as German and French) and to enhance teaching tools, forms, and methodologies.

# "QƏRBİ AZƏRBAYCANLILAR: UNUDULMUŞ İRS" KİTABININ TƏQDİMATI




Noyabrın 3-də Xəzər Universitetinin Nərimanov kampusunda Nəsiman Yaqublunun "Qərbi Azərbaycanlılar: Unudulmuş irs" kitabının təqdimatı keçirilib. Tədbirdə çıxış edən Prof. Nəsiman Yaqublu kitabın nəşrinə göstərilən dəstəyə görə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə öz təşəkkürünü bildirib. Sonra o, Qərbi Azərbaycan bölgəsindən olan müəlliflər Əkbər ağa Şeyxülislamzadənin, Məmməd Sadıq Aranın, Tağı Aranın, akademik Heydər Hüseynovun oxuculara geniş məlum olmayan yaradıcılıq nümunələrinin bu kitabda toplanıldığını iştirakçıların diqqətinə çatdırıb.

Tədbirdə çıxış edən Xəzər Universitetinin müəllimi Bayram Quliyev də N.Yaqublunun son illərdə nəşr edilən kitablarının Azərbaycan tarixinin unudulmuş sahələrinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Tədbirin sonunda iştirakçılara "Qərbi Azərbaycanlılar: Unudulmuş irs" kitabı paylanılıb.

# PRESENTATION OF THE BOOK "WESTERN AZERBAIJANIS: THE FORGOTTEN HERITAGE"

On November 3, the presentation of the book "Western Azerbaijanis:The Forgotten Heritage" by Nasiman Yagublu was held at the Narimanov campus of Khazar University. Speaking at the event, Prof. Nasiman Yagublu expressed his gratitude to the State Support Agency and Non-Governmental Organizations of the Republic of Azerbaijan for the support given to the publication of the book. Then, he highlighted that the book gathers creative works of lesser-known authors from the West Azerbaijan region, including Akbar Aga Sheikhulislamzade, Mammad Sadig Aran, Tagi Aran, and academician Heydar Huseynov. Speaking at the event, Khazar University lecturer Bayram Guliyev emphasized the significant contribution of N. Yagublu's recent publications to the exploration of overlooked aspects of Azerbaijani history.

The presentation concluded with the distribution of the book "Western Azerbaijanis: The Forgotten Heritage" to the participants.

# KƏRKÜK ŞAİRİ, ARAŞDIRMAÇI-YAZAR, İCTİMAİ XADİM DR. ŞƏMSƏDDİN KUZƏÇİ İLƏ GÖRÜŞ

# MEETING WITH KIRKUK POET, RESEARCHER-WRITER, PUBLIC FIGURE DR. SHAMSEDDIN KUZACHI



*Qəzənfər Paşayev, Şəmsəddin Kuzəçi, Neşet Əhməd*

Noyabrın 4-də Xəzər Universiteti Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunda görkəmli Kərkük şairi, araşdırmaçı-yazar, ictimai xadim Dr. Şəmsəddin Kuzəçi ilə görüş keçirildi. Görüşdə qocaman alim, Kərkükü və Kərkük ədəbiyyatını Azərbaycan oxucusuna tanıdan və sevdirən, əməkdar elm xadimi, Prof. Qəzənfər Paşayev, Hollandiya Kərkük diasporunun sədri Neşet Əhməd, Dos. Şəlalə Ana, Dos. Xatirə Yusifova, Şəhram Oromi, Xəzər Universitetinin tələbələri iştirak edirdilər.

Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunun direktörü Dos. Nəzakət Məmmədli qonaqları salamlayaraq, Kərkükün Azərbaycan üçün böyük önəm daşıdığını söylədi.

Prof. Qəzənfər Paşayev Kərkük ədəbiyyatı, folkloru, Şəmsəddin Kuzəçinin yaradıcılıq yolu barədə məlumat verdi. Qeyd etdi ki, Dr. Şəmsəddin Kuzəçinin ikicildlik "Çağdaş İraq Türkman şairləri" kitabı İraq, Türkiyə, Azərbaycan və başqa türk ellərində çap olunub, oxucuların rəğbətini qazanıb.

Dr. Şəmsəddin Kuzəçi məhsuldar tədqiqatçıdır. Onun 60-dan artıq kitabı çap olunub. Alimin "Poets of Kerkuk" ( "Kərkük şairləri", Ankara, 2014), "İraki Press history" ("İraq Basim tarixi",

On November 4, a gathering took place at Khazar University's Mevlana Center for Literary and Philosophical Studies, featuring the distinguished Kirkuk poet, researcher-writer, and public figure, Dr. Shamseddin Kuzachi. The meeting was attended by an honored scientist, who introduced Kirkuk and Kirkuk literature to the Azerbaijani reader, Prof. Gazanfar Pashayev, the chairman of the Dutch Kirkuk diaspora, Neshet Ahmed,Assoc. Prof. Shalala Ana, Assoc. Prof. Khatira Yusifova, Shahram Oromi, and students of Khazar University.

Assoc. Prof. Nazakat Mammadli, the director of the Mevlana Center for Literary and Philosophical Studies, extended a welcome to the guests and emphasized the great significance of Kirkuk for Azerbaijan.

Prof. Gazanfar Pashayev provided details about Kirkuk literature, folklore, and the creative journey of Dr. Shamseddin Kuzechi. He highlighted that Shamseddin Kuzechi's two-volume work, "Contemporary Iraqi Turkmen Poets," garnered acclaim from readers in Iraq, Türkiye, Azerbaijan, and various Turkic nations.

Dr. Shamsaddin Kuzachi is a highly accomplished researcher with over 60 published books. His works, such as "Poets of Kerkuk" (Ankara 2014) and "Iraki Press History," (Ankara 2023) highlight his significant

Ankara, 2023) kitabları o deməkdir ki, Dr. Şəmsəddin Kuzəçi Beynəlxalq aləmə çıxan və buna haqqı olan tədqiqatçıdır.

Dos. Şəlalə Hümmətli Şəmsəddin Kuzəçinin Azərbaycanla sıx əlaqələrindən danışdı. Qeyd etdi ki, Azərbaycanda "VEKTOR" Beynəlxalq Elmi Mərkəzinin "Fəxri doktoru" adına layiq görülüb. 2022-ci ildən Türk Dünyası Akademiyasının, 2023-cü ildən isə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Fəxri professoru"dur.

Sonra Şəmsəddin Kuzəçi çıxış edərək, taleyinə ağır sınaqlar düşən Kərkükün tarixindən və bu günündən, milli kimliyinə sahib çıxan Kərkük insanının qarşılaşdığı çətinliklərdən danışdı. Sonda şair öz şeirlərindən və xoyrat adlanan Kərkük bayatılarından nümunələr oxudu. Tələbələrin suallarına cavab verdi, onlara öz kitablarını hədiyyə verdi.

Ş. Kuzəçi Kərkük Kültür Dərnəyi adından Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunun direktörü Dos. N.Məmmədlini "Kərkük-Türkmənеli mədəniyyətinə, sənətinə və ədəbiyyatına Xidmət Fərmanı" ilə təltif etdi.

contributions, positioning him as a respected international scholar.

Assoc. Prof. Shalala Hummatli spoke about Shamseddin Kuzachi's close relations with Azerbaijan. She noted that he was awarded the title of "Honorary Doctor" of "VECTOR" International Scientific Center in Azerbaijan. Since 2022, he is an "Honorary Professor" of the Turkic World Academy, and since 2023, the "Honorary Professor" of the Nizami Institute of Literature of ANAS.

Then, Shamseddin Kuzachi delivered a speech addressing the historical and current challenges of Kirkuk. He discussed the hardships experienced by the people of Kirkuk in their quest for national identity. Concluding his talk, the poet shared excerpts from his poems, known as khoyrat, related to Kirkuk. He also responded to students' questions and distributed copies of his books.

On behalf of the Kirkuk Culture Association, Shamseddin Kuzechi honored Assoc. Prof. N. Mammadli, the director of the Mevlana Center for Literary and Philosophical Studies, with the " Recognition for Outstanding Contributions to Kirkuk-Turkmaneli Culture, Art, and Literature ".




*Nəzakət Məmmədli*

## "XƏZƏR"İN DEPARTAMENT MÜDİRİ ALMATI ŞƏHƏRİNDƏ ZƏFƏR GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ TƏDBİRDƏ

## KHAZAR UNIVERSITY DEPARTMENT HEAD ATTENDS VICTORY DAY EVENT IN ALMATY

Noyabrın 8-də Qazaxıstan Respublikasının Almatı şəhərində Azərbaycanın Zəfər Günü münasibətilə tədbir keçirilmişdir. Azərbaycanın Qazaxıstandakı səfirliyi tərəfindən təşkil olunan tədbirə Azərbaycanın incəsənət ustaları – Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, tanınmış pianoçu Zülfiyyə Sadıqova, əməkdar artistlər İlahə Əfəndiyeva və Fərid Əliyev dəvət olunmuşdular.

Qazaxıstanın Dövlət himnindən sonra Azərbaycanın Dövlət himni Zülfiyyə Sadıqovanın pianoda müşayiəti ilə İlahə Əfəndiyeva və Fərid Əliyev tərəfindən ifa edilmişdir.

Qazaxıstanda yaşayan azərbaycanlıların, Qazaxıstan ictimai xadimlərinin və Almatı şəhərində yerləşən diplomatik korpusun nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan səfir Ağalar Atamoğlanov şanlı Zəfər bayramı haqqında qonaqlara ətraflı məlumat vermiş, 8 noyabr-Zəfər Gününün Azərbaycan xalqının iradəsinin və gücünün təntənəsinə çevrildiyini qeyd etmişdir.

Qazaxıstan Respublikası Xarici İşlər Nazirliyinin Almatı şəhərində nümayəndəliyinin rəhbəri Bakıtjan Buleqenov çıxış edərək, Azərbaycanın Dövlət Bayrağı Günü və ərazi bütövlüyünün bərpa olunması münasibətilə təbriklərini çatdırmışdır.

Tədbir bədii hissə ilə davam etmişdir. İlahə Əfəndiyeva və Fərid Əliyev Zülfiyyə Sadıqovanın müşayiəti ilə Azərbaycan, Qazaxıstan və Avropa bəstəkarlarının əsərlərini ifa etmişlər.



*Zülfiyyə Sadıqova, Ağalar Atamoğlanov, İlahə Əfəndiyeva, Fərid Əliyev*

On November 8, an event in celebration of Azerbaijan's Victory Day was held in Almaty, Republic of Kazakhstan. The Embassy of Azerbaijan in Kazakhstan organized the occasion, featuring the participation of accomplished Azerbaijani artists. Notable figures such as Zulfiyya Sadigova, head of Khazar University's Music and Art Department and a distinguished pianist, as well as honored artists Ilaha Efendiyeva and Farid Aliyev, were among the guests at the event.

Following the National Anthem of Kazakhstan, the National Anthem of Azerbaijan was performed by Ilaha Efendiyeva and Farid Aliyev accompanied on the piano by Zulfiyya Sadighova.

Ambassador Aghalar Atamoghlanov, addressing the gathering that included Azerbaijanis residing in Kazakhstan, Kazakh public figures, and members of the diplomatic corps in Almaty, provided comprehensive insights into the significance of the Victory Day. He highlighted that November 8, the Victory Day, has evolved into a celebration symbolizing the resilience and fortitude of the Azerbaijani people.

Bakitjan Bulegenov, the head of the representative office of the Ministry of Foreign Affairs of the Republic of Kazakhstan in Almaty, addressed the audience, extending congratulations to Azerbaijan on the occasion of the National Flag Day and the successful restoration of territorial integrity.

The program proceeded to the artistic segment, featuring performances by Ilaha Efendiyeva and Farid Aliyev, who showcased compositions by Azerbaijani, Kazakh, and European composers accompanied by Zulfiyya Sadighova on the piano.

# XƏZƏR UNİVERSİTETİ IX BAKI BEYNƏLXALQ KİTAB SƏRGİSİNDƏ

Noyabrın 11-də Bakı Ekspo Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100-illik yubileyinə həsr olunan IX Bakı Beynəlxalq Kitab Sərgisinin açılışı keçirildi.

Açılış mərasimində elm adamları, səfirlər, millət vəkilləri, tanınmış mədəniyyət və ədəbiyyat nümayəndələri iştirak edirdilər.

IX Bakı Beynəlxalq Kitab Sərgisində, hər il olduğu kimi, Xəzər Universitetinin nəşrlərinin stendi də yer alıb.

Sərgidə görkəmli yazıçılarla görüş, kitab təqdimatları və müxtəlif tədbirlər keçirilir.

Sərgi noyabrın 16-dək davam etmişdir.




# KHAZAR UNIVERSITY AT THE IX BAKU INTERNATIONAL BOOK FAIR

On November 11, the opening of the 9th Baku International Book Fair, dedicated to the 100th anniversary of the national leader Heydar Aliyev, was held at the Baku Expo Center under the organization of the Ministry of Culture.

The opening ceremony was attended by scientists, ambassadors, MPs, notable figures in culture and literature.

At the 9th Baku International Book Fair, as every year, Khazar University's publications were showcased at their stand.

Meetings with prominent writers, book presentations and diverse events are held at the exhibition.

The exhibition is scheduled to run until November 16.

## İSTANBUL TİCARƏT UNİVERSİTETİNİN REKTORU "XƏZƏR"DƏ
## RECTOR OF ISTANBUL COMMERCE UNIVERSITY AT KHAZAR

Noyabrın 13-də İstanbul Ticarət Universitetinin rektoru Prof.Dr. Abdülhamit Avşar Xəzər Universitetində universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı ilə görüşdü. O, İstanbul Ticarət Universiteti, oradakı ixtisaslar və fakültələr haqqında H. İsaxanlıya geniş məlumat verdi və yeni çapdan çıxmış kitabını hədiyyə etdi. Görüş İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəylinin iştirakı ilə keçdi.

Sonra Prof.Dr. Abdülhamit Avşar Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova ilə görüşdü. Görüş zamanı əlaqələrin inkişaf etdirilməsi, ikitərəfli müqavilələrin imzalanması və digər məsələlər müzakirə olundu. Görüşdə Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov iştirak etdilər.

On November 13, Istanbul Commerce University Rector Prof. Dr. Abdulhamit Avshar met with Hamlet Isakhanli, the founder of the university and chairman of the Board of Directors and Trustees, at Khazar University. He provided detailed information about Istanbul Commerce University, including its specialties and faculties, and presented his newly published book as a gift. The meeting was attended by Alovsat Amirbeyli, director of Public Relations and Media as well. Then Prof. Dr. Abdulhamit Avshar met with Assoc. Prof. Irada Khalilova, the rector of Khazar University, where discussions centered around the development of relations, the signing of bilateral agreements, and other pertinent matters. Dean of the School of Science and Engineering Fakhranda Efendiyeva, Dean of the School of Economics and Management Jeyhun Mammadov took part in the meeting.



*Əlövsət Əmirbəyli, Abdülhamit Avşar, Hamlet İsaxanlı*

# ƏCNƏBİ TƏLƏBƏLƏR KLUBUNUN MƏLUMAT SESSİYASI

# INFORMATION SESSION OF INTERNATIONAL STUDENTS' CLUB WAS HELD



*Arzu Bədəlova*



Oktyabrın 24-də Xəzər Universitetində Əcnəbi tələbələr klubu tərəfindən universitetin bu ilki əcnəbi tələbələrinə klub haqqında məlumat sessiyası keçirilib.

Tədbiri Beynəlxalq Əlaqələr ofisinin koordinatoru Arzu Bədəlova açmışdır. Sonra klub üzvləri tərəfindən klubun əsas fəaiyyət planı barədə tələbələrə ətraflı məlumat verilib.

Qeyd edək ki, Əcnəbi tələbələr klubu Erasmus Tələbə Cəmiyyəti Azərbaycan platformasının tərkibində fəaliyyət göstərir və Beynəlxalq Əlaqələr ofisi ilə birbaşa əlaqəlidir. Klubun işçi heyətini Xəzər Universitetinin cari tələbələri klubunun prezidenti Afaq Mustafazadə, vitse-prezident Aduagba Abdullahi Yahaya, sosial media meneceri Nigar Əsgərova, tədbirlər üzrə koordinatorları İlahə Məmmədova və Jalə Zeynalova, dizayner, layihələr və tədbirlər üzrə meneceri Aysu Məmmədova təşkil edir.

Görüşün sonunda tələbələr üçün təşkil olunmuş bir-birilərini tanıma xarakterli oyun keçirilmişdir.

On October 24, Khazar University International Students Club held an information session for the this year`s international students of the university, providing information about the club.

The event was opened by Arzu Badalova, coordinator of the International Relations office, followed by club members providing comprehensive details about the club's main activities. It's worth mentioning that the international students' club is part of the Erasmus Student Society Azerbaijan platform and is closely affiliated with the International Relations office. The club's team includes Afaq Mustafazade, president of Khazar University's current students' club, vice-president Aduagba Abdullahi Yahaya, social media manager Nigar Asgarova, events coordinators Ilaha Mammadova and Jala Zeynalova, and designer, projects, and events manager Aysu Mammadova.

The session concluded with a get-to-know game for the students.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ VROSLAV UNİVERSİETİNDƏ

## HEAD OF THE DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY VISITS THE UNIVERSITY OF WROCLAW



*Urszula Broda, Izabela Janicka, Orxan Vəliyev*

Oktyabrın 23-27-də Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev Erasmus-İşçi heyətinin tədris mübadiləsi programı (KA171) çərçivəsində Polşanın Vroslav Universiteti Sosial elmlər fakültəsinin Avropa Araşdırmaları İnstitutunda olmuşdur. Dr. Vəliyev institutun magistr tələbələrinə "Atəşkəsdən zəfərə: Azərbaycanda dövlət və milli kimlik" mövzusunda mühazirə oxumuşdur. Mühazirə tələbə və müəllimlərin sualları ilə başa çatmışdır. Programda Xəzər Universiteti ilə yanaşı, müxtəlif ölkə və universitetlərdən də elm adamları iştirak etmişdir.

Dr. Vəliyev program çərçivəsində Vroclav Universiteti Beynəlxalq ofisinin müdiri Urszula Broda, Qarşılama ofisinin əməkdaşı Izabela Janicka və prorektor Dr. Maciej Cesarz ilə görüşmüşdür. Dr. Cesarz ilə görüşdə Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamenti ilə mümkün əməkdaşlıq müzakirə edilmişdir.

From October 23-27, Dr. Orkhan Valiyev, the head of Khazar University's Department of Political Sciences and Philosophy, participated in the Erasmus-Staff Mobility program (KA171), visiting the Institute of European Studies at the Faculty of Social Sciences of Wroclaw University in Poland. Dr. Valiyev presented a lecture on "From Armistice to Victory: State and National Identity in Azerbaijan" to graduate students at the institute. The lecture concluded with an interactive session involving questions from both students and faculty. Notably, scholars from different countries and universities, alongside representatives from Khazar University, also took part in the program.

Within the program, Dr. Valiyev met Urszula Broda, the head of the International Office at the University of Wroclaw, and vice-rector Maciej Cesarz. During the meeting with Dr. Cesarz, potential collaborations with Khazar University's Department of Political Sciences and Philosophy were explored.

## “XƏZƏR”İN NÜMAYƏNDƏSİ DAAD TBİLİSİ REGİONAL OFİSİNİN BEYNƏLMİLƏLLƏŞMƏ VÖRKŞOPUNDA

## KHAZAR UNIVERSITY REPRESENTATIVE AT DAAD TBILISI REGIONAL OFFICE INTERNATIONALIZATION WORKSHOP

Noyabrın 2-3-də Xəzər Universiteti Beynəlxalq Əlaqələr Şöbəsinin müdiri Fatimə Vəliyeva Alman Akademik Mübadilə Xidmətinin (DAAD) Tbilisi Regional Ofisi tərəfindən 15 Cənubi Qafqaz universitetinin beynəlxalq ofis rəhbərləri üçün keçirilən “Beynəlmiləlləşmə Strategiyalarının Hazırlanması” mövzusunda vörkşopda iştirak edib.

DAAD ilə Almaniya Rektorlar Konfransının (HRK) birgə təşkilatçılığı ilə keçirilən bu vörkşop Avropa İttifaqının maliyyələşdirdiyi FU4Dialogue layihəsi çərçivəsində baş tutub.

Vörkşop müddətində Sapienza Universitetinin (İtaliya), Eötvöş Lorand Universitetinin (Macarıstan), Lumière Lyon 2 Universitetinin (Fransa) professorları onlayn şəkildə Beynəlmiləlləşmə istiqamətində öz təcrübələrini bölüşüblər. İki gün ərzində alimlər “Beynəlmiləlləşmə və dayanıqlılıq“, “Tədqiqatda beynəlmiləlləşmə“, “Beynəlmiləlləşmədə dil siyasətinin rolu“ kimi müxtəlif mövzularda fikir mübadiləsi aparıblar və müzakirə prosesində qrup olaraq təqdimatla çıxış ediblər.

Sonda Universitet nümayəndələri DAAD Tbilisi Regional Ofisinin fəaliyyəti ilə tanış olublar.

On November 2-3, Khazar University Head of International Relations Department Fatima Valiyeva attended the workshop on "Development of Internationalization Strategies" held by the Tbilisi Regional Office of the German Academic Exchange Service (DAAD) for international office heads of 15 South Caucasus universities.

This collaborative workshop, supported by the European Union through the FU4Dialogue project, was co-hosted by the DAAD and the German Rectors' Conference (HRK).

Throughout the workshop, professors from Sapienza University (Italy), Eötvös Lorand University (Hungary), and Lumière Lyon 2 University (France) shared their insights on the theme of online internationalization. Over the course of two days, scholars engaged in discussions covering diverse subjects like "Internationalization and sustainability," "Internationalization in research," and "The role of language policy in internationalization." As part of the interactive session, they collectively presented their findings.

The workshop concluded with university representatives familiarizing themselves with the initiatives of the DAAD Tbilisi Regional Office.




*Soldan ikinci Fatimə Vəliyeva*

## "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU






# "HEYDƏR ƏLİYEV VƏ MİLLİ MƏTBUAT" KİTABI ÇAP OLUNUB

Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsində hazırlanan "Heydər Əliyev və milli mətbuat" kitabı çap olunub. Kitab Ədəbiyyat İnstitutunun Elmi Şurasının 8 fevral 2023-cü il tarixli 1 saylı qərarı ilə nəşr edilib.

Kitabın "Heydər Əliyevin dövlətçilik siyasətində mətbuat" adlı ön sözünün müəllifi və baş redaktoru AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir.

Elmi redaktoru Mətbuat tarixi və publisistika şöbəsinin müdiri filologiya elmləri doktoru, professor Vüqar Əhmədir. Rəyçiləri filologiya elmləri doktoru, professor Cahangir Məmmədli və əməkdar jurnalist Namiq Əhmədovdur. Məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Gülbəniz Babayeva, nəşrə məsul filologiya üzrə fəlsəfə doktoru Töhfə Talıbovadır.

Kitabdakı araşdırmalardan "Heydər Əliyev və mətbuat" professor Vüqar Əhmədə, "Heydər Əliyev mətbuat və dövlətçilik əlaqələrinin qurulub-tənzimlənməsi haqqında" filologiya elmləri doktoru Elçin Mehrəliyevə, "Heydər Əliyev və "Molla Nəsrəddin" filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Babayevaya, "Heydər Əliyev irsində Qarabağ zəfərinə gedən yol" filologiya üzrə fəlsəfə doktoru Gülnar Səmaya məxsusdur.

Monoqrafiyada Heydər Əliyevin mətbuatla dövlətçilik əlaqələrinin qurulmasındakı tarixi xidmətlərindən bəhs olunur. 320 səhifəlik kitab "Elm və təhsil" nəşriyyatında çap olunub.

Qeyd edək ki, Bakı Ekspo Mərkəzində keçirilən IX Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasının "Heydər Əliyev İli" nəşrlərinin təqdimatı zamanı həmin kitab da təqdim olunub. Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, AMEA-nın birinci vitse-prezidenti, akademik Arif Həşimov, AMEA-nın vitse-prezidenti, akademik Rasim Əliquliyev, AMEA-nın vitse-prezidenti v.i.e., akademik Gövhər Baxşəliyeva, Akademiyanın elmi müəssisələrinin rəhbərləri və əməkdaşları, həmçinin Mətbuat tarixi və publisistika şöbəsinin əməkdaşları da iştirak ediblər.

# "ÇAĞDAŞ TÜRKMAN ƏDƏBİYYATI" MÖVZUSUNDA ELMİ SEMİNAR




*Qəzənfər Paşayev, Şəmsəddin Kuzəçi, İsa Həbibbəyli, Teymur Kərimli*

Ədəbiyyat İnstitutunda "Çağdaş Türkman ədəbiyyatı" mövzusunda elmi seminar keçirilib. Təbirdə məruzəçi kimi Dr. Şəmsəddin Kuzəçi təmsil olunub. Eyni zamanda Qazaxıstandan gəlmiş alimlər və başqa ziyalılar da seminarda iştirak ediblər.

Tədbirdən öncə seminarın mövzusunu əhatə edən kitab sərgisi ilə tanışlıq olub.

Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq Türkman və Azərbaycan ədəbiyyatının əlaqələrindən danışıb. Xoryat janrında yazılan əsərlərin kərkük ədəbiyyatında xüsusui rolunu vurğulayıb. Qeyd edib ki, "Şəmsəddin Kuzəçi Kərkük mövzusunda yetmiş üç kitab ərsəyə gətirib. O, İraq-Azərbaycan, Kərkük-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsində də böyük xidmət göstərir. İraq-Azərbaycan əlaqələrini möhkəmləndirməyi Türkiyə və İraqda həyata keçirənlər içərisində Şəmsəddin Kuzəçi öndə gəlir. Bu gün Azərbaycan-İraq ədəbi əlaqələri yüksək səviyyədə inkişaf edir. Bu əlaqələrin inkişaf etdirilməsi Kərkükdə yaşayan türk insanının, azərbaycanlıların qorunmasına, yaşamasına, haqlarını əldə etməsinə, məktəbini, mənəviyyatını qurub daha da möhkəmlənməsinə xidmət edir".

Akademik İsa Həbibbəyli Türkman alimlərinin elmi məqalələrindən ibarət kitabın çap olunması zərurətindən söz açıb. Şəmsəddin Kuzəçiyə "Azərbaycan-İraq-Türkman ədəbiyyatının tədqiqi və təbliği sahəsindəki görkəmli xidmətlərinə, Azərbaycan elmi-ədəbi dairələri ilə səmərəli əlaqələrinə görə" Ədəbiyyat İnstitutunun Fəxri Doktoru diplomunu təqdim edib.

Sonra Şəmsəddin Kuzəçi tədbirin təşkili üçün təşəkkürlərini çatdırıb. İraq türkmanlarının İraqda məskunlaşma tarixinə nəzər salan məruzəçi, eyni zamanda İraq dövlətinin yaranma xronologiyasını da xatırladıb. Çağdaş Türkman ədəbiyyatının ümumi mənzərəsini yaradan tədqiqatçı görülmüş işlər barədə ətraflı məlumat verib. Çağdaş Türkman şairlərinin iki cildlik antalogiyasını hazırladığını qeyd edib.

Filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev görülən işlərin əhəmiyyətini qeyd edərək, 12 iyul 2023-cü il tarixində Azərbaycanda İraq-Türkman Araşdırmaları Şurasının yaradılmasını diqqətə çatdırıb. Şuranın tədbirlər planının hazır olduğunu bildirib.

İraq-Türkman Araşdırmaları Şurasının sədri, akademik Teymur Kərimli də çıxışında görülmüş işləri xatırladaraq qarşıda duran məsələlərdən söz açıb.

Tədbirdə qazaxıstanlı alim Ağmaral İsmaqulova, filologiya elmləri doktoru, professor İmamverdi Həmidov, tarix elmləri doktoru Güllü Yoloğlu çıxış edərək bu tədbirin gələcək işlərə böyük təkan verəcəyini əlavə ediblər.

**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*



# PSİXOLOGİYADA "İONA KOMPLEKSİ" VƏ ONUN SOSİAL-PSİXOLOJİ ASPEKTLƏRİ

**Ceyhun Alıyev**
*Psixologiya üzrə fəlsəfə doktoru, dosent*
*Xəzər Universiteti*
*Psixologiya departamenti*
*ceyhunalıyev@mail.ru*

**Açar sözlər:** *"İona kompleksi", özünügerçəkləşdirmə, tələbat, motivləşmə.*

Texniki tərəqqinin sürətlə inkişaf etdiyi cəmiyyətdə gərəkli olan çevik şəxsiyyət yetişdirmək üçün onun özünügerçəkləşdirməsinə şərait yaratmaq və müvafiq intellektual bacarıqlar aşılamaq lazımdır. Şəxsiyyətin özünügerçəkləşdirməsi müvafiq sosial inkişaf şəraitinin yaradılması ilə mümkün olur. Sosial inkişaf şəraiti daha çox mədəniyyətlə şərtlənir. Bu mənada mədəniyyət özünügerçəkləşdirmə tələbatının ödənilməsinə şərait yaratmalı və ona təkan verməlidir.

Şəxsiyyət özünü gerçəkləşdirmədən özünün mövcud potensialını üzə çıxara və praktik fəaliyyətdə ondan səmərəli istifadə edə bilmir. Bu baxımdan şəxsiyyətin özünügerçəkləşdirməsi bir tərəfdən sosial və interpsixi, digər tərəfdən isə intrapsixi, yəni şəxsiyyətdaxili məsələdir. Fəallıq və mövcudluğun əsas atributlarından sayılan özünügerçəkləşdirmə insanın həyat yolunu müəyyənləşdirir. Demək olar ki, özünügerçəkləşdirmə hər kəsə nəsib olmur və ya heç də hər bir kəs mövcud olan potensial imkanlarını dərk edib üzə çıxara bilmir (8,137). Cəmiyyətdə şəxsiyyətin özünügerçəkləşdirilməsinə necə nail olmaq olar? Bir tərəfdən sosial mühitlə, ikinci bir tərəfdən isə təhsil sisteminin humanistləşdirilməsi yolu ilə.

Biz bu məsələni özünügerçəkləşdirmənin sosial tərəfi ilə, xüsusilə sosial mühitlə şərtlənən tərəflə, daha dəqiq desək, bu yolda meydana çıxaraq mane olan "İona kompleksi" üzərindən araşdırmağa çalışacağıq. Özünügerçəkləşdirmə konsepsiyasının əsası humanistik psixologiyanın yaradıcıları K.Rocers və A.Maslou tərəfindən qoyulmuşdur. Şəxsiyyətin özünügerçəkləşdirməsi ilə bağlı digər konsepsiyalar məhz humanistik psixologiyanın metodologiyasına əsaslanır.

Tədqiq etdiyimiz məsələnin araşdırılması üçün ilk növbədə "İona kompleksi"nin nə olduğu, psixologiya tarixində ilk dəfə kim tərəfindən təklif edildiyi, şəxsiyyətin ali tələbatı kimi özünügerçəkləşdirməsi prosesinə göstərdiyi təsir və onu şərtləndirən sosial-psixoloji səbəblər aydınlaşdırılmalıdır.

"İona kompleksi"ndəki İona müsəlmanların Yunus kimi tanıdığı peyğəmbərin Bibliyadakı adıdır. Yunus peyğəmbərin adı Qurani-Kərimin Nisa, Ənam, Saffat surələrində qeyd olunmuşdur. Bundan başqa, Quranda 109 ayədən ibarət olan 10-cu surənin 98-ci ayəsində

Hz.Yunusun tayfasından bəhs edildiyi üçün surəyə "Yunus surəsi" adı verilmişdir (9, 21).

Bibliyada adı çəkilmiş İona, Allahın onun üçün təyin etdiyi missiyanı yerinə yetirməkdən boyun qaçıran şəxsdir. Allahın ona əmr etdiyi vəzifəni yerinə yetirməkdə özünü bacarıqsız hesab etdiyinə görə onun üçün təyin olunan missiyanı icra etməkdən boyun qaçırmaq istəmiş və öz qövmünü tərk edərək, gəmi ilə uzaqlaşmaq istərkən dənizdə suya qərq olmuşdur. Bu dəfə Allahın hökmü ilə balıq onu udmuş və bir müddət sonra balıq onu dəniz sahilinə sağ buraxmışdır. Balığın qarnında olarkən olub keçənlər barədə düşünən İona xilas olduqdan sonra Allahın ona yüklədiyi missiyanı yerinə yetirməyə başlayır.

"İona kompleksi" psixologiya tarixində ilk dəfə amerikan psixoloqu Abraham Maslou tərəfindən işlədildiyi üçün psixoloji ədəbiyyatlarda Maslou`nun qeyd etdiyi kimi "İona kompleksi" adlanır. A.Maslou qeyd edir ki, İona öz taleyindən əbəs yerə qaçmağa çalışdığı kimi, biz də çox vaxt təbiətin, taleyin, hətta bəzən təsadüfün bizə diktə etdiyi (daha doğrusu təklif etdiyi) məsuliyyətlərdən qaçırıq" (7,1). Maslou bu kompleksi insanın öz dahiliyi qarşısında yaşadığı qorxu kompleksi ya da onun üçün yazılmış olan alın yazısından qaçmağa cəhd kimi izah etmişdir.

Psixologiyada kompleks anlayışının mahiyyəti – insanın fiziki, psixi və sosial individuallığının insanlarla münasibətdə doğurduğu sosial disharmoniya kimi izah olunur. Kompleks – vəziyyətin başa düşülməməsi, dərk olunmamasıdır. Kompleksin bir tərəfi davranış və rəftarda, hiss və düşüncədə özünü göstərən simptomlarda, ikinci gizli və əsl səbəbi isə psixikanın şüursuzluq qatında yerləşir.

"İona kompleksi"nə görə, insan özünün pis xüsusiyyətlərindən çəkindiyi qədər yaxşı tərəfindən də ehtiyat edir. Ona görə ki, bəzi insanlar üçün təyin olunan həyat missiyası gözündə o qədər böyük görsənir ki, o, bu missiyadan, yaxud da ali tələbatdan imtina edərək, özünü güzəran qayğıları ilə məşğul edir, həyatını adi tələbatları ödəməyə sərf edir.

Hər bir insan həyatında elə bir anla üzləşir ki, özünün böyük potensiala sahib olduğunu dərk edir və həmin an özünü dahi kimi hiss edir. Bununla belə, - Maslou qeyd edir ki, - biz həmin bu imkanı hiss etdikdə qorxudan əsib-titrəyir və ondan uzaq qaçırıq.

Fizika üzrə Nobel mükafatçıları Andrey Qeym və Konstantin Novoselov qeyd edirlər ki, "Bəşəriyyətin tərəqqisi macəra, əyləncə hissi və qeyri-standart təfəkkür hesabına hərəkət etmişdir. Dünyanı idarə edən "Çörək və tamaşa" tələbinin hökm sürdüyü şəraitdə ehtiyatlılıq və siyasi korrektlik xatirinə qeyd olunan keyfiyyətlər unudulur, yaddan çıxır".

Yaradıcılıq psixologiyası üzrə ameriakalı tədqiqatçı F.Baron`a sual verirlər: bizə hərdən elə görünür ki, yaradıcılıq potensialı tükənib, yaxud uzun illər gerçəkləşməmiş qalıb? Cavabında F.Baron deyir: "Əgər içində yaşadığımız cəmiyyət davranış və yaşayışın "doğru-düzgün" üsullarını müəyyənləşdirməyə həddindən artıq meyl edirsə, onda insanın təcrübə aparmaq marağı, yaratmaq eşqi tükənib itir. Mühüm problemlərin həlli zamanı orijinal və məhsuldar olmaq çox vaxt insandan arasında yaşadığı adamlardan seçilmək cəsarəti, fərqlənmək hünəri istəyir" (3,137).

"İona kompleksi"nin kökündə yatan sosial-psixoloji faktorlardan biri insanların individuallaşmaqdan ehtiyat etmələri, yəni başqalarından fərqlənməkdən qorxmalarıdır. Başqalarına güclü bağlılıq hissi və güclü aidlik tələbatı ilə fərqlənənlər, müəyyən bir qrupa aid olma zərurətini hiss edənlər həmin hissi gerçəkləşdirə bilmədikdə özlərini zəif, müdafiəsiz və tənha hiss edirlər. Fərqləndiyi halda, hamı kimi olmadıqlarına görə tənqid ediləcəklərindən çəkindikləri üçün narahat olur və səhv etməkdən qorxarlar (4, 214). Tənqid edilməyi özlərinə qarşı dəyər verilməməklə bərabər olduğunu düşündükləri üçün onlar hər hansı bir məsələdə fərqli addım atmaqda, fikir söyləməkdə çətinlik çəkirlər. Bunun əvəzində başqalarının xoşuna gələn, onları razı salacaq və bəyəniləcək şəkildə hərəkət etməyə

üstünlük verirlər. Şəxsin düşüncə, hiss və davranışında bəyənilmə tələbatının ön plana çıxması onların fikir bildirməsinin və istəyinə uyğun seçim etməsinin, fərqli ola bilmək bir sözlə individuallaşmasının qarşısını alır, onun inkişafına mane olur. Bu da həmin insanlarda risk etmə qorxusu yaradır. Burada fərdlə mədəniyyətin üzə-üzə gəldiyini görürük.

Deməli, sosial mühit, yaxud da fərdin aid olduğu mədəniyyət onun tələbatlarının boğulmasına yox, onun ödənilməsinə kömək etməlidir. Məsələyə bu aspektdən yanaşdıqda belə qənaətə gələ bilərik ki, gənclərin daha yüksək həyat idealı seçərək yaşamalarına və onların bu yolda motivləşməsinə mane olan İona kompleksinin təsirinə məruz qalmalarının bir səbəbi daxil olduqları mədəniyyətlə şərtlənir. Odur ki, inkişafı və özünügerçəkləşdirmə kimi ali tələbatları buxovlayan mədəniyyətlə determinasiya olunan stereotip düşüncələrin yenidən nəzərdən keçirilməsinə zəruri ehtiyac var.

Amerikan antropoloqu Rut Benedikt`in terminologiyasına uyğun olaraq mədəniyyət konsepsiyamız və onun fərdlə qarşılıqlı münasibəti "sinergiya"ya doğru dəyişməlidir. A.Maslou`nun qeyd etdiyi kimi, mədəniyyət təkcə insan tələbatlarını ödəmək üçün deyil, həm də həmin tələbatların məhsulu olmalıdır (3, 162). Deməli, xalqın mədəniyyəti onun tələbatının məhsulu olduğu halda, o fərd və xalqı gücləndirə, inkişaf etdirə bilər. Bəzi hallarda xalqın tələbatı olmayan yabançı mədəniyyəti ona müasirlik adı ilə təbliğ edərək, milliləşdirməyə çalışırlar. Bu cür yabançı mədəniyyət məhsulları xalqın tələbat məhsulu olmadığı üçün onun milli və dini identikliyinə mənfi təsir göstərir, inkişafını əngəlləyir.

"İona kompleksi"nin neqativ təsiri ilk növbədə gənclərin özünügerşəkləşdirmə tələbatında öz əksini tapır. İnsan tələbatları iyerarxik struktura malikdir. Tələbatın yeri iyerarxiyanın nə qədər yuxarı pilləsindədirsə, onun ödənilməsinə olan tələbat da bir o qədər az olur. Belə olduğu halda ali tələbatların (estetik, özünügerçəkləşdirmə) yox olma ehtimalı daha çox olur. Deməк ki, "İona kompleksi"nin təsirinə məruz qaldıqda özüngerçəkləşdirmə tələbatının təmin olunmaması onun zəifləməsinə və tamamilə sönməsinə səbəb olur.

Aşırı səviyyədə olan aidlik tələbatı ilə şərtlənərək, cəsarətli olmağı zəifldən başqa bir qorxu birgəyaşayışla bağlı sosial norma və prinsiplərin sərhədlərini aşma həyəcanıdır. Qrupdan kənarda qalmaq və özünü qrupdan təcrid olunmuş kimi hiss etmək düşüncə və qayğısı ilə yaşamaq bəzi gənclərdə ümumi həyəcan yaratdığı üçün onlar həyat yolunu öz istəklərinə görə deyil, başqalarının istəklərinə görə yaşamalı olurlar (4, 94). Cəsarət əskikliyi ucbatından başqalarından fərqlənmək qorxusu ilə yaşayanlar "palaza bürün, el ilə sürün" düşüncəsinə uyğun olaraq başqaları tərəfindən yönəldilərək yaşamağı seçirlər. Təşbehlə ifadə etsək, təbiətdəki heyvanlar arasında da cəsur olanlar təkbaşına dolaşarkən, qorxaq olanlar qrup halında, sürü şəklində yaşayırlar. Cəsurluqdan qaynaqlanan insanlarda fərdiyyətçiliyin daha qabarıq şəkildə olduğunu bunun əksi olan cəsarətsizliyin, qorxaqlığın isə insanlarda fərdiyyət ola bilməməklə nəticələndiyini görürük. Yaradılış etibarilə sosial varlıq olan insan təkbaşına xoşbəxt ola bilməyəcəyindən, öz kimliyi və şəxsiyyətilə qrup içində cəsur davranmağı bacarmalıdır. Bu dəyəri sosial həyata töhfə vermək üçün istifadə etməsi, onu eqoizm əsaslı individuallaşmaqdan qoruya biləcəkdir. İnsanların öz tələbatlarını ödəmək üçün etdikləri cəsur davranışlar sosial həyata tətbiq edildikdə, bu, qrupun inkişafına töhfə verən bir xüsusiyyətə çevrilir. Bu xüsusiyyətlərindən aldıqları güclə fərqlənən şəxslər daxil olduqları qrup üzvlərinin də fərqli düşünmələrini motivləşdirə və cəsarətli addımlar atmağa sövq edə bilərlər. Çevik düşüncəli cəsur adamların ətrafındakı şəxslərə ən böyük faydaları onların da müvafiq şəkildə hərəkətə keçmələrinə yardımçı olmalarıdır (4,98).

"İona kompleksi"ni tələbatlar müstəvisində təhlil etsək görə bilərik ki, bu kompleks ilk növbədə fərdin özünügerçəkləşdirmə tələbatını blokadya salır və onun həyata keçirilməsinin

qarşısını alır. Özünügerçəkləşdirmə tələbatı A.Maslou`nun tələbatlar piramidasında ali tələbat kimi ən yüksək pillədə dayanır (6,178). Ali tələbatlar adi tələbatlarla müqayisədə ontogenetik inkişafın daha sonrakı mərhələsində formalaşır. Yüksək motivasiyalı həyat tərzi fərd üçün həm sosial, həm də bioloji cəhətdən daha çox əhəmiyyət kəsb edir. Belə olduqda həyat daha sağlam, eləcə də uğurlu və məhsuldar olur. Ali tələbatların ödənilməsi orqanizmin həyat qabiliyyətini yüksəldir, onun inkişafına xidmət edir. Fərdin öz tələbatlarını dərk etməsi, nəyin vacib olduğunu başa düşmək özlüyündə böyük psixoloji nailiyyətdir. Ali tələbatların aktuallaşması üçün əlverişli sosial şəraitin və dəstəyin olması zəruridir. Bu mənada özünügerçəkləşdirmə tələbatı fərd üçün subyektiv məna kəsb edir. Ali tələbatların ödənilməsi adi tələbatlarla müqayisədə şəxsiyyəti özünügerçəkləşdirməyə daha çox yaxınlaşdırır. Yüksək motivasiyalı həyat və ali tələbatların ödənilməsi fərdin daha çox individuallaşmasına səbəb olur. Digər cəhətdən, müqayisə etsək görə bilərik ki, adi tələbatlarla müqayisədə ali tələbatların ödənilməsi üçün fərdin bu prosesə daha çox səy göstərməsi lazımdır. Məsələn, fərdin özünügerçəkləşdirmə tələbatını ödəməsi üçün göstərdiyi cəhd və fəallıq onun təhlükəsizliyə olan tələbatını ödəmək üçün sərf etdiyi zəhmətdən daha çox olmalıdır. A.Maslou`nun dediyi kimi, "yüksək" həyat, "adi" həyatla müqayisədə daha mürəkkəb və çox zəhmət tələb edir (6,157). Deməк ki, "İona kompleksi"nə düçar olmaq bir tərəfdən adekvat sosial şəraitin olmaması ilə şərtlənirsə, digər tərəfdən fərdin individuallaşmaqdan qaçması, yaxud da onun bu yolda zəhmət çəkmək istəyindən uzaq olaraq, Maslounun təbirincə desək, "adi" həyat yaşamağa razı olmasına bağlıdır.

Beləilklə, "İona kompleksi" fərdin müvəffəqiyyət əldə etmək, fərqlənmək, individuallaşmaqdan və ya ən yaxşı insan olmaqdan qorxmasıdır. Belə bir qorxu ilə yaşamaq insanın öz potensialının reallaşmasına mane olur. "İona kompleksi"nin təsiri altında olan insan öz böyüklüyündən və individuallaşmasından qorxduğu üçün öz taleyindən yayınaraq, qabiliyyət və istedadını həyata keçirməkdən imtina edir. Şəxsin uğursuzluğa düçar olmaq qorxusu onun inkişafına təkan verə bildiyi kimi, şəxsin ən yaxşısına nail olmaq qorxusu da nailiyyət əldə etmək istəməsinə mane ola bilər.

## Ədəbiyyat


1. Bayramov Ə.S, Əlizadə Ə.Ə. Psixologiya, Bakı, "Maarif", 1989. 540 s.
2. Bayramov Ə.S, Əlizadə Ə.Ə.Sosial psixologiya, Bakı,"Qapp -Ploiqraf" 2003. 356 s.
3. Seyidov Səməd. Yaradıcılığın fenomenologiyası. Bakı, 2013, 288 s.
4. Nevzat Tarhan. Değerler Psixolojisi ve İnsan.Timaş yayınlar.2019. 255 s.
5. Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi üçün dərslik. Bakı, "Nurlan" 2007,700 s.
6. Маслоу. А. Мотивация и личность. СПб.: Евразия. 2005. 478 с.
7. Abraham Maslow. The Jonah Complex. The Father Reaches of Human Nature. ISBN 9780140194708.
8. Əliyev B., Əliyeva K., Cabbarov R. Pedaqoji psixologiya. Bakı, 2011. 265 s.
9. Qurani - Kərim və açıqlamalı məali (tərcümə edən Prof. Fazil Qaraoğlu). Nurlar, 2007. 604 s.

## RAUF DENKTAŞ UNİVERSİTETİNİN RƏHBƏRLİYİ "XƏZƏR"DƏ

Noyabrın 16-də Xəzər Universitetində Şimali Kipr Türk Cümhuriyyətinin Rauf Denktaş Universitetinin rəhbərliyi ilə görüş keçirilib.

Görüşdə universitetin İdarə heyətinin sədri, Rauf Denktaş Fondunun prezidenti Serdar Denktaş, İdarə heyətinin sədr müavini Mehmet Hasgüler, Xəzər Universitetinin rektoru İradə Xəlilova, İctimai əlaqələr və media üzrə direktoru Ələvsət Əmirbəyli, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak ediblər.

Diskussiya şəraitində baş tutan görüşdə məqsəd univeristetlər arasında qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi idi. Universitetlər təklif etdikləri proqramlar və təqaüdlər haqqında bir-birlərini məlumatlandırdılar.

## RAUF DENKTAS UNIVERSITY ADMINISTRATION AT KHAZAR UNIVERSITY

On November 16, a meeting was held at Khazar University involving the administration of Rauf Denktas University from the Turkish Republic of Northern Cyprus. The attendees included Serdar Denktas, the chairman of the university's board and president of the Rauf Denktas Foundation, Mehmet Hasguler, the deputy chairman of the board, Irada Khalilova, the rector of Khazar University, Alovsat Amirbeyli, the director of Public Relations and Media, and Fatima Valiyeva, the head of the International Relations Department. The purpose of the meeting was to enhance mutual relations between the universities, with both institutions exchanging information about their respective programs and scholarships in a discussion-oriented atmosphere.




*Ələvsət Əmirbəyli, Serdar Denktaş, İradə Xəlilova*

## SİALKOT UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ “XƏZƏR”DƏ

## SIALKOT UNIVERSITY REPRESENTATIVES AT KHAZAR UNIVERSITY



*İrfan Maqsood, Faisal Manzoor, Rehan Younas*



*İradə Xəlilova*

Noyabrın 16-da Xəzər Universitetində Pakistanın Sialkot Universitetinin nümayəndələri görüş keçirilmişdir.

Görüşdə Sialkot Universitetinin təsisçisi, Direktorlar Şurasının sədri Faisal Manzoor, universitetin əməkdaşları Rehan Younas, İrfan Maqsood, Xəzər Universitetinin rektoru İradə Xəlillova, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekan əvəzi Məhəmməd Eldarov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, rektorun köməkçisi Humay Hüseynova və Nailəxanım təqaüdünün qaliblərindən olan pakistanlı tələbə Monireh Bahrami iştirak etmişlər.

Görüşdə hər iki universitetin rəhbərliyi universitetlər barədə qısa məlumat vermiş, gələcək əməkdaşlıq imkanlarını müzakirə etmişlər. Fatimə Vəliyeva tərəfindən universitet haqqında təqdimat nümayiş olunmuşdur.

Rektor İradə Xəlilova Xəzər Universitetinin Pakistan universitetləri ilə birgə professor-müəllim və tələbə mübadiləsi, layihələr, konfrans və seminarların təşkilində maraqlı olduğunu vurğulamışdır.

Hal-hazırda Xəzər universitetində təhsil alan pakistanlı tələbələr haqqında danışan prorektor Məhəmməd Nuriyev mövcud təqaüd imkanları haqqında məlumat vermişdir.

Universitetlər arasında müxtəlifyönlü əməkdaşlığın qurulması istiqamətində müzakirələrlə davam edən görüş rektorun qonaqlara Xəzər Universiteti adından hədiyyə təqdim etməsi ilə yekunlaşmışdır.

On November 16, Khazar University hosted a gathering with representatives of Pakistan's Sialkot University.

The atendees included the founder of Sialkot University and chairman of the Board of Directors Faisal Manzoor, along with university staff members Rehan Younas and Irfan Magsood. Representatives from Khazar University present at the meeting included Rector Irada Khalillova, Vice-Rector for Academic Affairs Mahammad Nuriyev, Dean of the School of Economics and Management Jeyhun Mammadov, Acting Dean of the Graduate School of Science, Art, and Technology Mahammad Eldarov, Head of the International Relations Department Fatima Valiyeva, Assistant to the Rector Humay Huseynova, and Nailekhanim scholarship recipient, Pakistani student Monireh Bahrami.

At the meeting, the administration of both universities provided concise overviews about the universities and explored potential avenues for future collaboration. Fatima Valiyeva delivered a presentation about Khazar University.

Rector Irada Khalilova highlighted Khazar University's keen interest in facilitating collaborative initiatives such as faculty and student exchanges, joint projects, as well as organizing conferences and seminars with universities in Pakistan. The discussions during the meeting focused on fostering comprehensive cooperation between the two universities. The session concluded with the rector extending a gift to the guests on behalf of Khazar University.

# UNİVERSİTETİN BASKETBOL KOMANDASI ŞİMALİ KİPR TÜRK RESPUBLİKASININ 40 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN BEYNƏLXALQ TURNİRDƏ

# BASKETBALL TEAM OF THE UNIVERSITY IN THE INTERNATIONAL TOURNAMENT MARKING THE 40TH ANNIVERSARY OF THE TURKISH REPUBLIC OF NORTHERN CYPRUS

Noyabrın 13-16-da Şimali Kipr Türk Respublikasının (ŞKTR) Lefkoşa şəhərində ŞKTR-in 40 illiyi münasibətilə Beynəlxalq Universitetlərarası Basketbol turniri keçirilib. Beynəlxalq Turnirdə Azərbaycanı Xəzər Universitetinin Basketbol komandası təmsil edib.

Noyabrın 13-də səfər qabağı universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli komandanın üzvləri ilə görüşüb. Komandanın baş məşqiçisi Anar Hacıyev hazırlıq haqqında məlumat verib.

Komanda turnirdə iştirak edərək, vətənə qayıdıb.

In on November 13-16, an International Inter-University basketball tournament was held in Lefkosia, the Turkish Republic of Northern Cyprus (TRNC) on the occasion of the 40th anniversary of the TRNC. Khazar University basketball team represented Azerbaijan at the international tournament.

On November 13, prior to their departure, the director of Public Relations and Media of the University, Alovsat Amirbeyli, met with the members of the team. The head coach of the team Anar Hajiyev informed about the preparation.

The team took part in the tournament and returned home.






*Cəmilə Quliyeva, Gültekin Gürdal, Aytac Misgərli*

# İZMİR YÜKSƏK TEXNOLOGİYA İNSTİTUTUNDA AZƏRBAYCAN UNİVERSİTETLƏRİNİN İŞTİRAKI İLƏ TƏHSİL TURU KEÇİRİLİB

# STUDY VISIT WITH THE PARTICIPATION OF AZERBAIJAN UNIVERSITIES WAS HELD AT IZMIR INSTITUTE OF TECHNOLOGY

Xəzər Universitetinin koordinatoru olduğu Azərbaycanda İnstitusional Repozitoriyalar Şəbəkəsi vasitəsilə Tədqiqat Potensialının İnkişaf Etdirilməsi (DIRNA) adlı Erasmus+ layihəsi çərçivəsində 2023-cü il noyabrın 15-17 - də İzmir Yüksək Texnologiya İnstitutunda birinci təhsil turu keçirilmişdir. Təhsil turunda Xəzər Universiteti ilə bərabər 7 tərəfdaş Azərbaycan universiteti ((Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Gömrük Komitəsinin Akademiyası, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti) iştirak edib. Xəzər Universiteti tədbirdə Kitabxana İnformasiya Mərkəzinin direktoru Tatyana Zaytseva, direktor müavini Aytac Misgərli və Komplektləşdirmə müdiri Cəmilə Quliyeva ilə təmsil olunub.

Təlimin məqsədi Azərbaycan ali təhsil müəssisələrində araşdırılan keyfiyyətli tədqiqat işlərinə əlçatanlığın təmin edilməsi üçün Türkiyə təcrübəsindən yararlanmaq idi. Təhsil turu dövründə İzmir Yüksək Texnologiya İnstitutunun kitabxanasının müdiri Gültekin Gürdal`ın təşkilatçılığı ilə GCRIS Texniki İnfrastruktur, Açıq Elmə Baxış, Türkiyədə Açıq Elmin İnkişafı, Türkiyədə və İzmir Yüksək Texnologiyalar İnstitutunda İnstitusional Arxivlərin İnkişafı mövzularında təqdimatlar keçirilmişdir.

Tur çərçivəsində Azərbaycan universitetlərinin nümayəndələri İzmir Yüksək Texnologiya İnstitutunun rektoru Prof. Yusuf Baranla görüşüblər. Görüşdə iki qardaş ölkə arasında ali təhsil müəssisələrinin əməkdaşlığı haqqında müzakirələr aparılıb.

The first study visit was held at the İzmir Institute of Technology on November 15-17, 2023 within the framework of the Erasmus+ project called Development of Research Potential through the Network of Institutional Repositories in Azerbaijan (DIRNA), which is coordinated by Khazar University. Along with Khazar University, 7 partner universities of Azerbaijan (Baku State University, Azerbaijan Technical University, Academy of Azerbaijan State Customs Committee, Ganja State University, Nakhchivan State University, Lankaran State University, Mingachevir State University) participated in the study visit. Khazar University was represented at the event by Tatyana Zaytseva, the director of the Library Information Center, Aytac Misgarli, the deputy director, and Jamila Guliyeva, the collection manager.

The purpose of the training was to take advantage of Türkiye's experience to provide access to qualitative research studies conducted in Azerbaijani higher education institutions. During the study visit, presentations on GCRIS Technical Infrastructure, Overview of Open Science, Development of Open Science in Türkiye, Development of Institutional Archives in Türkiye and İzmir Institute of Technology were organized by the Gultekin Gurdal, director of the library of İzmir Institute of Technology.

Within the framework of the visit, representatives of Azerbaijani universities met with Prof. Yusuf Baran, the rector of İzmir Institute of Technology. During the meeting, discussions were held on the cooperation of higher education institutions between the two brotherly countries.



# XOŞBƏXTLİK ARZULAYIRAM HAMINIZA!

İsaxan müəllim, o gün (19/VIII-2023) siz tərəfdən mənə olan davranış məni yamanca utandırdı, yaxşı ki, xalq seyrəlmişdi. Kitabı əlimə alanda kimin kitabı olduğunu belə başa düşmədim, baxa bilmədim kitaba. Əvəzxan kitabı məndən aldı və dedi ki, Nailəxanımın kitabıdır. Çox sağ olun mənim əzizlərim, məni bu qədər qiymətləndirdiyiniz üçün. Vallah, söz tapa bilmirəm öz razılığımı bildirməyə.

O məqamda xəyal məni çox uzağa apardı; 1962-ci ildə Qazaxıstanın (Kokçetav vilayəti, Arıqbalıq rayonu. Deyəsən, indi o vilayət ləğv olunub) Selinoqrad şəhərinə (Целиноград) biçin sahələrindən buğda daşıyırdıq. Pərakəndə halda işləyirdik, bacaran gecə də işə çıxa bilirdi. Kombaynlar növbə ilə gecə-gündüz hərəkətdə idilər. Bunkeri dolan kombaynçı gündüz bayraq qaldırırdı, gecə isə (fara) işığını yandırıb söndürürdü.

Mənim "Zil-164" markalı maşınım vardı. 300 sayda maşından artıq böyük bir briqada idik. İttifaqın çox yerindən işə göndərilənlər var idi. Bir gün bizi çöldə bir yerdə cəmləşdirdilər. Çox keçmədi bir helikopter təyin edilmiş yerə endi, qapısı açıldı və sənin kimi yaraşıqlı bir oğlan yerə atıldı. (Vilayətin Komsomol komitəsinin I katibi). Bir nəfər səsucaldıcı ilə işdə fərqlənən adamları bir-bir onun yanına çağırdı. O, oğlan köməkçisinin diqtəsi ilə vərəqə baxıb, mükafat verirdi. Mükafat 30-50 manat (rubl) məbləğində olurdu. Birdən mənim adımı və soyadımı səsləndirdilər. Elə sevindim ki... Cibimdə 1 manat da olsun pulum yox idi. Yüyürə-yüyürə gəldim və oğlanın qarşısında durdum. Bir də nə görsəm yaxşıdı, kağıza bükülmüş bir qalaq kitab – "İnaçe jit ne stoit" (Vera Ketlinskaya), "Xrebtı Sayanskiye", 2 cild (Sergey Sartakov) və s.

Mən duruxdum, yəqin oğlan bunu hiss etdi və dedi:

- Razı olmadınmı, bizə belə çatdırıblar ki, sən...

- Yox, yox, nə danışırsınız?! Zorla olsa da məndən "sağ olun" kəlməsi qopdu və büdrəyə-büdrəyə geri qayıtdım. Ancaq o zaman elə mükafatım olduğuna indi çox sevinirəm.

Bu günsə siz tərəfdən verilən yadigar üçün hədsiz sevinirəm və qürrələnirəm ki, Nailəxanım kimi insan haqqında deyilmiş xoş kəlamlarla, xoş xatirələrlə dolu bir kitaba

sahib oldum. Çox sağ olun!

İsaxan müəllim, nə yaxşı olub ki, qəlbimdə gizlicə sizə olan istəyi, cüzi olsa da, Oqtaya etdiklərimlə rahatlanmışam (əvvəlcə ticarətdə, sonra təsərrüfatda). Yaş fərqimizə baxmayaraq dost kimi də olmuşuq. Bunu hamı bilirdi. Bir-birimizin ailəsində də olmuşuq (mən onun Qardabanidəki evində).

"Ötən günlərimi qaytaraydılar" (İ.Akif). Bəli, sizdən gəldim evə və dəsvaha kitabxanama baş çəkdim (otağın birini zövcəmlə dava-dalaşdan sonra kitabxana edə bilmişəm) və sizdən xəbərsiz, 2012-ci ildə ələ keçirdiyim "Serqey Yesenin"i rəfin darısqallığından azad etdim, neçə gündür vərəqləyirəm, yəni öz durumuma uyğun səhifələri axtarıb oxuyuram. Əvvəl hiss etmədiyimi indi anlayıram. Məs: tərcüməçilərin bəzilərinə çox sərt olmusunuz. Bir nəfərəsə haqq qazandırıbsınız: "Burada, sözsüz ki, tərcüməçinin azərbaycançılığı öz sözünü demişdir" – deməklə. ...Getdi-getsin, dalınca da qara daş.

İsaxan müəllim, sizin sayənizdə, daha doğrusu, sizin xətrinizə qəlbimdə Yeseninə də bir yer vermişəm, balaca olsa da. Niyə belə deyirəm, inciməyin məndən; mənimki Xəlil Rzadır – (...Azadlığı istəmirəm qram-qram), Ramiz Rövşəndir – (Bir az uzun çəkdi ömrüm deyəsən və ya gizlənməyə bir yer göstər gizlənim), V.Səmədoğludur – (Allah məni yarı öldür, yarı saxla ağlamağa), H.İsaxanlıdır – (Hilalqaş lütf eylərsə, iki göz tüğyan eylər və ya kişiyə ağlamaq yaraşmasa da, bəzən ağlamamaq mənə ar gəlir). Mənimki Məmməd Arazdır – (Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim). Aşıqlardan mənimki Aşiq Veysəldir – (Yetişmək üçün mənzilə gediyorum gündüz-gecə) və bəziləri.

Keçirəm məqsədimə - mən Nailəxanımı 1990-cı il iyul ayında birinci və axırıncı dəfə görmüşəm.

SSRİ dağılırdı, hər yer yiyəsizləşirdi, o cümlədən təhsil ocaqlarında da əvvəldən mövcud olan özbaşınalıq sürətlə artırdı. Oğlum Səfayətin instituta qəbulu haqda narahat idim. Müraciət edəcəyim adamlar var idi – Xalq Təsərrüfatı İnstitutunda Mehbalıyev Sovet, Telman müəllim, Fərdə müəllim, universitetdə Sofiyev Məhəd müəllim. Amma qardaşım Süleyman müəllim məsləhət verdi ki, qoy Səfayəti Hamlet müəllim yoxlasın və bizə yol göstərsin. Getdik Hamlet müəllimgilə. Hamlet müəllim iki nəfər çağırdı və onlara tapşırdı ki, Səfayətin bilik səviyyəsini yoxlasınlar (Səfayət məktəbi medalla qurtarmışdı). Onlar qarşı otağa keçdilər.

Uzun çəkdi "imtahan". Mən darıxdım və saymazyana "imtahan" gedən otağa baxdım. Gördüm ki, Nailəxanım nəsə deyə-deyə Səfayəti onların arasından qopartdı və başqa masada oturtdu, qarşısına bir qab doğranmış qarpız qoydu. Mən elə bil ölmüşdüm, dirildim. Bir neçə dəqiqə öncə düşünürdüm, heç nə istəmirəm, nə qəbul, nə institut; heç nə, heç nə! Uşağımı versinlər çıxıb evimizə gedək.

Nailəxanımın oğluma münasibətini gördüm və rahatlandım. Allahın hüzurunda onun üzü ağ olsun! Amin!

İsaxan müəllim, qiymətli vaxtınızı alıram və narahat edirəm sizləri. Dura bilmədim, razılığımı çatdırmasaydım, dincəlməzdim. Bir də ki, günahın hamısı məndə deyil, siz üz verdiniz mənə. Ancaq çalışacam astar istəməyim – bu son narahatçılığımdır. Məni üzürlü hesab edin.

*Salamat olun!*

*25/VIII-2023*

**A.Əşrəf**

## "XƏZƏR"İN ƏMƏKDAŞLARI LATVİYA RESPUBLİKASININ 105 İLLİK YUBİLEYİNDƏ

## KHAZAR UNIVERSITY STAFF MEMBERS AT THE 105TH ANNIVERSARY OF THE REPUBLIC OF LATVIA

Noyabrın 17-də Latviyanın Azərbaycandakı səfirliyində Latviya Respublikasının 105-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Səfirliyin dəvəti ilə tədbirdə Xəzər Universitetinin İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva da iştirak etmişlər. Mərasim Azərbaycanın və Latviyanın Dövlət himnlərinin ifası ilə başlanıb.

Latviyanın tarixinə, keçdiyi inkişaf yoluna nəzər salan səfir Edqars Skuya Azərbaycan-Latviya əlaqələrinin müxtəlif sahələrdə dinamik inkişafından danışıb. İki ölkə arasındakı diplomatik əlaqələrin 2024-cü ildə 30 illiyinin qeyd olunacağını diqqətə çatdıran səfir, münasibətlərin strateji əməkdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb.

"Latviya həm də Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına dəstək göstərir" deyən səfir iki ölkə arasındakı əlaqələrin beynəlxalq arenada da uğurla inkişaf etdiyini bildirib.

Sonra çıxış edən xarici işlər nazirinin müavini Samir Şərifov Azərbaycan hökuməti adından Latviya xalqını Respublikanın yaranmasının 105-ci ildönümü münasibətilə təbrik edib. Azərbaycan-Latviya münasibətlərinin strateji əhəmiyyət daşıdığını qeyd edən nazir müavini iki ölkənin bir-birini hər zaman dəstəklədiyiini qeyd edib.

On November 17, an event dedicated to the 105th anniversary of the Republic of Latvia was held at the Embassy of Latvia in Azerbaijan. At the invitation of the embassy, the dean of Khazar University's Graduate School of Economics and Business, Inqilab Ahmadov, and the head of the International Relations Department, Fatima Valiyeva, also participated in the event. The ceremony commenced with the rendition of the national anthems of Azerbaijan and Latvia.

Ambassador Edgars Skuja, reflecting on Latvia's history and developmental journey, highlighted the dynamic progress in Azerbaijan-Latvia relations across various domains. He underscored the upcoming 30th anniversary of diplomatic ties in 2024, noting that the relationship has evolved into one of strategic cooperation.

The ambassador expressed Latvia's support for Azerbaijan's ties with the European Union, stating that the bilateral relations between the two nations thrive not only nationally but also on the international stage.

Deputy Foreign Minister Samir Sharifov extended congratulations to the people of Latvia on their Republic's 105th anniversary on behalf of the Azerbaijani government. Emphasizing the strategic significance of Azerbaijan-Latvia relations, the deputy minister stressed the mutual support that characterizes the ongoing collaboration between the two countries.

## HOFSTRA UNİVERSİTETİNİN PROFESSORU XƏZƏR UNİVERSİTETİNDƏ MƏRUZƏ EDİB

Noyabrın 18-də tanınmış özbək şərqşünası, Amerikanın Hofstra Universitetinin professoru, tarix elmləri doktoru Elyor Kərimov Xəzər Universitetində «Orta Asiyada sufi təriqətləri» mövzusunda məruzə edib.

Tədbirə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututnun, Tarix İnstitutunun və Fəlsəfə və Sosiologiya İnstitutunun əməkdaşları,

## HOFSTRA UNIVERSITY PROFESSOR DELIVERS A LECTURE AT KHAZAR UNIVERSITY

On November 18, the renowned Uzbek orientalist, professor of America's Hofstra University, Doctor of History Elyor Karimov gave a lecture on "Sufi Sects in Central Asia" at Khazar University.

The event was attended by the staff of the Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS, the Institute of History and the Institute of Philosophy and Sociology, faculty



Xəzər Unuversitetinin müəllim və tələbələri qatılıblar.

Xəzər Universiteti Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunun direktoru Nəzakət Məmmədli qonağı və iştirakçıları salamlayaraq bildirib ki, Orta Asiyada yaranan sufi təriqətləri Nəsimi, Seyyid Yəhya Bakuvi, Məhəmməd Füzuli və s. şairlərimizin yaradıcılığına, Azərbaycan fəlsəfi fikrinin formalaşmasına təsir göstərib. Hətta 19-cu əsr böyük sufi şairi Mir Həmzə Seyyid Nigari Qarabaği Buxarada yaşamış Bəhaəddin Nəqşbəndinin mənəvi davamçısı olduğunu qeyd edib.

E. Kərimov məruzəsində Orta Asiyada təşəkkül tapmış və bütün dünyaya yayılmış yəsəvilik, kübrəvilik, nəqşbəndilik və s. təriqətlərin yaranma tarixindən, ideoloji əsaslarından, nümayəndələrindən, həmçinin Yusif Həmədani, Əhməd Yəsəvi, Nəcməddin Kübra, Übeydullah Əhrar, Əbdürrəhman Cami və s. dahi şəxsiyyətlərin həyat yolundan, fəaliyyətindən, yaradıcılığından bəhs edib. Sonda iştirakçıların mövzu ətrafında sualları cavablandırılıb.

Qeyd edək ki, professor E. Kərimov UNESKO-nun Ümumdünya Yaddaş Reyestrinin Alt Komitəsinin üzvü, YUNESKO tərəfindən nəşr olunmuş «Mərkəzi Asiya sivilizasiyalarının tarixi» çoxcildliyinin müəllifidir.

members and students of Khazar University.

Nazakat Mammadli, director of Khazar University Mevlana Center for Literary and Philosophical Studies extended greetings to the guests and participants and said that the Sufi sects that arose in Central Asia influenced the creativity of Nasimi, Seyyid Yahya Bakuvi, Muhammad Fuzuli and other poets, and the formation of Azerbaijani philosophical thought. Even the great sufi poet of the 19th century Mir Hamza Sayyid Nigari Karabakhi noted that he was a spiritual follower of Bahaaddin Naqshbandi, who lived in Bukhara.

In his speech E. Karimov spoke about Yasaviism, Kubraism, Naqshbandism, and other sects that were formed in Central Asia and spread all over the world, their ideological foundations, their representatives, as well as the life path and activities of Yusif Hamedani, Ahmad Yesavi, Najmeddin Kubra, Ubeidullah Ahrar, Abdurrahman Jami and other geniuses. The lecture concluded with Dr. Karimov addressing participants' questions on the topic.

It's noteworthy that Professor E. Karimov is a UNESCO World Memory Register Sub-Committee member and the author of the UNESCO-published multivolume "History of Central Asian Civilizations."

## “TƏHSİL MENECERLƏRİNİN FORUMU” KEÇİRİLMİŞDİR

Noyabrın 19-da Bakı şəhərindəki 20 nömrəli məktəbdə Xəzər Universiteti və “Dünya” məktəbinin tərəfdaşlığı, Hədəf Şirkətlər Qrupunun təşkilatçılığı ilə “Təhsil Menecerlərinin Forumu” keçirilmişdir. Tədbirdə məktəbin rəhbərliyi və müəllimləri, Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları iştirak etmişlər.

Forumda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı “Təhsildə keyfiyyət və idarəetmə problemləri” mövzusunda geniş məruzə etmişdir.

Tədbirdə Xəzər Universitetinə və Prof. Akad. Hamlet İsaxanlının yaradıcılığına həsr olunan kitablar da forumun sərgi stendlərindən birində nümayiş olunmuşdur.

Forumun keçirilməsində əsas məqsəd təhsil sistemi və xidmətlərinin effektiv təşkilinə, kadrların idarə olunmasına, təhsildə informasiya texnologiyalarının tətbiqi və istifadəsinə, eləcə də keyfiyyətli tədris üsulu və dünyaya inteqrasiya istiqamətində doğru sayılan yanlışlıqları müəyyənləşdirməyə, dövlət və özəl təhsil müəssisələri arasında işgüzar əlaqələrin və kommunikasiyaların möhkəmləndirilməsinə xidmət edən platforma yaradılmasıdır.

## "FORUM OF EDUCATION MANAGERS" WAS HELD

On November 19, School No. 20 in Baku hosted the “Education Managers Forum” organized by Hadaf Group of companies, in partnership with Khazar University and Dunya School. The event was attended by the administration and teachers of the school, the administration and staff of Khazar University.

Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, delivered a lecture on "Quality and management problems in education" at the forum.

In addition, an exhibition stand showcased books dedicated to Khazar University and Hamlet Isakhanli's contributions.

The primary objective of the forum is to establish a platform for effectively organizing the education system and services, managing personnel, utilizing information technologies in education, and identifying misconceptions in teaching methods that may impact quality. The forum also aims to foster stronger business relations and communication between public and private educational institutions while promoting integration into the global educational landscape.

# ELMİ ŞURANIN NÖVBƏTİ İCLASI
# NEXT SCIENTIFIC COUNCIL MEETING

Noyabrın 21-də Xəzər Universiteti Elmi Şurasının növbəti iclası keçirildi. İclası universitetin rektoru Dos. İradə Xəlilova açaraq, gündəlikdə duran məsələləri Elmi Şura üzvlərinin nəzərinə çatdırdı.

Öncə rektor Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədovanın öz təşəbbüsü ilə vəzifəsindən azad olunduğunu şura üzvlərinin diqqətinə çatdıraraq, ona gələcək fəaliyyətində uğurlar dilədi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı Elza Səmədovanın Xəzər Universitetindəki uzunmüddətli səmərəli fəaliyyəti ilə bağlı məlumat verdi və ona Xəzər

On November 21, the next meeting of the Scientific Council of Khazar University convened. The meeting commenced rector Assoc. Prof. Irada Khalilova presiding, presenting the outlined agenda items to the council members.

First, the rector brought to the attention of the council members that the dean of the School of Humanities, Education and Social Sciences Elza Samadova was dismissed from her post on her own initiative and wished her success in her future activities. Prof. Acad.Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, acknowledged Elza



*Elza Səmədova* *Hamlet İsaxanlı*

Universiteti adından təşəkkür plaketi təqdim etdi.

Sonra gündəliyin birinci məsələsi kimi iclasın sədri Elmi Şura üzvlərinə Xəzər Universitetində elmi-tədqiqat mərkəzlərinin yaradılması ilə bağlı əmr haqqında məlumat verdi və hər bir departament müdirinə bu məsələ ilə bağlı ciddi iş görməsini tapşırdı. Bu məsələ ilə professor Hamlet İsaxanlının şəxsən məşğul olduğunu və onun bütün təkliflərə açıq olduğunu diqqətə çatdırdı.

İkinci məsələ olan proqram akkreditasiyasına hazırlıq işi ilə bağlı sədr Elmi Şura üzvlərini ətraflı məlumatlandırdı və departament müdirlərinə aidiyyatı üzrə müəyyən tapşırıqlar verdi. Məsələ ilə bağlı şura üzvləri arasında müzakirə aparıldı və müvafiq təkliflər irəli sürüldü.

Sədr gündəlikdəki üçüncü məsələ olan dissertantların dissertasiya mövzularının Problem Şurasından verilən sertifikatlara əsasən təsdiqlənməsi barədə fikrini ifadə etdi. Bu məsələ ətraflı müzakirə olundu.

Dördüncü məsələ olan fəlsəfə doktorluğu proqramı üzrə hazırlanan minimum imtahan proqramları haqqında məlumat vermək üçün iclasın sədri sözü elmi katibə verdi. Elmi katib hər bir proqram haqqında geniş şərh verdi. Elmi Şura üzvləri tərəfindən proqramların tərtibatı ilə əlaqədar bir çox təkliflər irəli sürüldü.

Elmi şuranın gündəliyindəki bütün məsələlərlə bağlı müfaviq qərarlar qəbul edildi.

Samadova's substantial contributions at Khazar University and honored her with a plaque of thanks on behalf of Khazar University.

The primary agenda item addressed the establishment of research centers at Khazar University, with the meeting's chair emphasizing the active involvement of Prof.Acad. Hamlet Isakhanli in this endeavor and encouraging department heads to engage earnestly.

Regarding the second item, the chair elaborated on the preliminary steps for program accreditation, assigning specific tasks to department heads and fostering a discussion among council members, resulting in pertinent proposals.

The third agenda item involved the endorsement of dissertation subjects, based on certificates issued by the Problem Council. This matter underwent a comprehensive discussion, culminating in the council's consensus. Subsequently, the chair granted the floor to the scientific secretary, who expounded on the minimum examination programs devised for the doctoral program—the fourth agenda item. The academic secretary provided thorough explanations for each program, prompting extensive input from council members on program design.

Ultimately, the Scientific Council reached conclusive decisions on all agenda items during the meeting.



# TORSUZ TENNİS OYUNU

**İmir Məmmədli**

Sərbəst şeir poeziyada yenilikdirmi? O, şeir tarixində yeni mərhələmi deməkdir?

Bəzilərinin fikrincə sərbəst şeir, qafiyəli şeirdən daha əvvəl yaranıb. Qafiyə sonrakı hadisədir, mətn yadda qalsın deyə şeirə əlavə olunub. Bəlkə də.

Amma bir şey var ki, altmışıncı illərdə sərbəst şeirin ədəbiyyatda geniş vüsət alması çoxlarının əlini-qolunu açdı, heca vəznində çətinlik çəkənlər kütləvi şəkildə sərbəst şeirə üz tutdular.

Sözsüz ki, qafiyənin bir çox fəzilətlərini və mənfi cəhətlərini sadalamaq olar. Dediyimiz kimi, qafiyəli şeir daha asanlıqla yadda qalır, şeiri müəyyən çərçivəyə salır, amma qafiyənin də təkrarlanma, tükənmə təhlükəsi var, həm də özünə hörmət edən şair - getdi, etdi, bitdi, itdi, atdı, batdı, yatdı, satdı, aldı, daldı, çaldı, saldı və s. kimi feillərdən qafiyə tutmağı özünə rəva bilmir.

Böyük fransız şairi Pol Valeri qafiyənin üstünlüyünü vurğulayaraq deyirdi ki, qafiyə diletantları qorxudur, onları şeirdən əllərini çəkməyə vadar edir.

Amma heca vəznində yaxşı yazan da yerində saymamalıdır, onun uğurlu qafiyələrlə zəngin şeirləri, ələlxüsus da qoşmaları Molla Pənah Vaqifin, dədə Ələsgərin qoşmalarından fərqlənməlidir, bu fərqin özəyini yeni reallığın bənzərsizliyi və özünəməxsusluğu təşkil etməlidir.

Bir çox ədəbiyyatların verliblistlərindən fərqli olaraq şeirlərinin əksəriyyətini sərbəst vəzndə yazan bizim şairlər ara-sıra qafiyədən də ustalıqla faydalanırlar. Vaqif Səmədoğlu ilə Vaqif Bayatlı Ödərin şeirlərində bu cür naxışlara tez-tez rast gəlmək olur. Sərbəst vəzndə yazdığı şeirlərində yeri gəldikcə qafiyəyə müraciət edən görkəmli fransız şairi və dramaturqu Pol Klodelinin fikrincə verlibrdə istifadə olunan qafiyə xoş ahəng üçün deyil, o, dənizə atılmış qarmaq kimi axtarış sahəsini müəyyənləşdirir, bəzən müəllif üçün gözlənilməz ifadələri belə tapmaqda yardımçı olur.

Bir halda ki, heca və sərbəst vəzndə yazılan poetik nümunələrin xüsusiyyətindən danışırıq, verlibrin struktur baxımından nəsrə çox yaxın olduğunu nəzərə alaraq bir aksiomanı unutmamalıyıq - şeirə yaşamaq hüququ verən yeganə cəhət onu nəsrdən fərqləndirən şeydir.

Dahi amerikan şairi Robert Frost`un bu barədə rəyi çox maraqlı və diqqətə layiqdir. Görün o nə deyir: Verlibr torsuz tennis oynamaq kimi bir şeydir. Yəni şeirdə qafiyə tennis stolunu ikiyə bölən tor rolunu oynayır, başqa sözlə, qafiyə şeir meydanında qaydaları və şərtləri əvvəlcədən müəyyənləşdirir, qayda-qanun yaradır. Frost`un bu sözləri, yəni tor məsələsi zamanında çoxlarını qıcıqlandırdı. Əslində isə, "sərbəst şeir" deyəndə, elə Robert Frost`un dediyi məna nəzərdə tutulur. Düşünürəm ki, bu yerdə bir şeyi də demək yerinə düşərdi: oyun meydançasını ikiyə bölən tor olmaya bilər, amma o, nəzərdə tutula bilər. Bəzən görünməyən, amma nəzərdə tutulan şey daha təsirli olur.

Bütün hallarda iki ifratı da nəzərdən qaçırmamalıyıq: Bəzən verlibr, müəllifi şirnikdirə-şirnikdirə sırf nəsrə aparıb çıxarır. Poeziyayla nəsrin səddi silinir, şair başqa bostana keçdiyini hiss etmir. Bu, bir ifrat.

İkinci ifrat dərəcəsi də buna bənzəyir, amma artıq ənənəvi şeirdə baş verir. Müəllif qafiyənin gur səsinə o qədər aludə olur ki, poetik mətndən nə vaxt kənara çıxdığından xəbəri olmur. Hər hansı publisistik bir mətni (həmin mətn iqtisadi də ola bilər, tarixi də, sosial da) götürüb nəzmə çəkir. Düşünür ki, şeir yazdı. Belə bir qafiyəli mətn şeirdirmi? Bəli, o, şeir ola bilər, amma poeziya yox.

Hər iki halda poetik dilin, poetik ifadənin və nəhayət poetik duyğu böhranının şahidi oluruq. Belə ki, problem ənənəvi və yaxud sərbəst şeirdə deyil, problem poetik dilin zəifləməsində, son nəticədə itməsindədir.

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORLARININ BİRGƏ MƏQALƏSİ "ELECTRONIC JOURNAL OF DIFFERENTIAL EQUATIONS" JURNALINDA

## JOINT ARTICLE BY PROFESSORS OF THE DEPARTMENT OF MATHEMATICS IN "ELECTRONIC JOURNAL OF DIFFERENTIAL EQUATIONS"

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Riyaziyyat departamentinin professoru, akademik Hamlet İsaxanlının və eyni departamentin professoru Biləndər Allahverdiyevin "Impulsive regular q-Dirac systems" ("İmpulsiv requlyar q-Dirak sistemləri") adlı birgə məqaləsi "Electronic Journal of Differential Equations" jurnalında (2023, Cild 2023, № 74) dərc edilmişdir. Qeyd edək ki, "Electronic Journal of Differential Equations" jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indeksləşdirilib.

Məqalədə impulsiv şərtləri olan requlyar q-Dirak sistemi tədqiq edilir. Baxılan sistemin həllinin mövcudluğu, müvafiq operatorun simmetrikliyi, məxsusi qiymətləri və məxsusi funksiyaları araşdırılır. Bundan başqa, sistemin Qrin funksiyası qurulur və onun əsas xassələri incələnir.

The joint article titled 'Impulsive Regular q-Dirac Systems' by the Founder of Khazar University, chairman of the Board of Directors and Trustees, Professor of the Department of Mathematics, Prof. Acad. Hamlet Isakhanli, and Professor Bilander Allahverdiyev from the same Department has been published in the 'Electronic Journal of Differential Equations' (2023, Vol. 2023, No. 74). It is worth noting that the 'Electronic Journal of Differential Equations' is indexed in the 'Web of Science' and 'Scopus' databases.

The article investigates regular q-Dirac system under impulsive conditions. It studies the existence of solutions, symmetry of the corresponding operator, eigenvalues and eigenfunctions of the system while obtaining Green's function and its basic properties.

*https://ejde.math.txstate.edu/Volumes/2023/74/allahverdiev.pdf*
*https://ejde.math.txstate.edu/*

POLITICAL REFLECTION MAGAZINE

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİNİN MƏQALƏSİ "POLITICAL REFLECTION" JURNALINDA

## ARTICLE BY POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT HEAD IN" POLITICAL REFLECTION" JOURNAL

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyevin "How to Define the Presence of the Türkiye in the South Caucasus: NATO or Turkic World?" ("Türkiyənin Cənubi Qafqazda varlığını necə müəyyənləşdirmək olar: NATO, yoxsa Türk Dünyası?" adlı məqaləsi "Political Reflection" jurnalının son nömrəsində (Vol. 9 | No. 4 – October-September-December 2023, s. 13-15) dərc edilmişdir.

Dr. Vəliyev məqalədə Türkiyənin Cənubi Qafqazda artan varlığını açıqlamaq üçün Türkiyənin NATO üzvü olduğunu diqqətə almaqla yanaşı, Türkiyənin yeni təsis edilən Türk Dövlətlər Təşkilatındakı rolunu da diqqətə almağın lazım olduğunu əsaslandırmışdır.

The article by Dr. Orkhan Valiyev, head of the Department of Political Sciences and Philosophy, entitled "How to Define the Presence of the Türkiye in the South Caucasus: NATO or Turkic World?" was published in the last issue of the journal "Political Reflection" (Vol. 9 / No. 4-October-September-December 2023, P. 13-15).

The article explores Türkiye's expanding presence in the region. Dr. Valiyev contends that understanding this presence requires consideration of Türkiye's role in the newly established Organization of Turkic States, along with its NATO membership.

*https://politicalreflectionmagazine.com/2023/11/14/how-to-define-the-presence-of-the-turkiye-in-the-south-caucasus-nato-or-turkic-world/*

## TƏBİƏT ELMLƏRİ VƏ MÜHƏNDİSLİK FAKÜLTƏSİNİN I KURS TƏLƏBƏLƏRİ ARASINDA İNTELLEKTUAL OYUN

## AN INTELLECTUAL GAME BETWEEN FIRST-YEAR STUDENTS OF THE SCHOOL OF SCIENCE AND ENGINEERING



*Əli Əliqulu, Emil Rozenberq, Yeqzar Cəfərli, Səyarə Əhmədova, Məhəmməd Şərif*

Noyabrın 21-də Təbiət elmləri və mühəndislik fakültəsinin Kompüter mühəndisliyi və kompüter elmləri ixtisaslarının I kurs tələbələri arasında intellektual oyun təşkil olunub. Oyunun keçirilməsi tələbələrin şifahi və yazılı nitq bacarıqlarını zənginləşdirmək, qruplar arasında həmrəylik yaratmaq, eyni zamanda əylənərək öyrənmək üçün əlverişli mühit formalaşdırmaq məqsədi daşıyıb.

Universitetin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Yeqzar Cəfərli tərəfindən "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni çərçivəsində təşkil olunan bilik yarışında 4 komanda – "Şairlər şurası", "Nizamilər", "Qılınc və Qələm" və "Natiqlər" iştirak edib.

Yarışın şərtlərinə uyğun olaraq, tələbələr semestr boyu öyrəndikləri mövzular əsasında öz bilik və bacarıqlarından istifadə ediblər. Nəticədə, ümumi balı ən çox olan "Natiqlər" (Əli Əliqulu, Emil Rozenberq, Səyarə Əhmədova, Məhəmməd Şərif) qrup oyunun qalibi olub.

On November 21, an intellectual game was organized between first-year students of Computer Engineering and Computer Science majors of the Faculty of Natural Sciences and Engineering. The purpose of the game was to enrich students' oral and written speech skills, to create solidarity between groups, and at the same time to create a favorable environment for learning while having fun.

4 teams - "Council of Poets", "Nizamis", "Sword and Pen" and "Speakers" participated in the knowledge competition organized by the lecturer of the Department of Languages and Literatures of the University Yeqzar Jafarli within the subject "Business and academic communication in Azerbaijani language".

According to the terms of the competition, students used their knowledge and skills based on the topics they studied throughout the semester. As a result, "Speakers"( Ali Aligulu, Emil Rozenberg, Sayara Ahmedova, Mahammad Sharif) with the highest total score won the group game.

## BAKI SECONQ İNSTİTUTUNUN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

Noyabrın 23-də Xəzər Universitetində Bakı Seconq İnstitutunun nümayəndələri ilə görüş keçirilmişdir.

Görüşdə Bakı Seconq İnstitutu Komitəsinin üzvü Kim Dong-hyun, institutun direktor müavini Sang Jeong Lee, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, universitetin rektoru Dos. İradə Xəlillova, Tədris işləri üzrə prorektor Prof. Məhəmməd Nuriyev, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak etmişlər.

Görüşdə hər iki tərəf fəaliyyətləri barədə qısa məlumat vermiş, gələcək əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

Görüş rektorun qonaqlara Xəzər Universiteti adından hədiyyə təqdim etməsi ilə yekunlaşmışdır.

## REPRESENTATIVES OF BAKU SEJONG INSTITUTE AT KHAZAR UNIVERSITY

On November 23, a gathering took place involving delegates from the Baku Sejong Institute and Khazar University.

Among the participants were Kim Dong-hyun, member of Baku Sejong Institute Committee, Sang Jeong Lee, deputy director of the institute, Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, Assoc. Prof. Irada Khalillova, rector of the University, Prof. Mahammad Nuriyev, vice-rector for Educational Affairs, Lyudmila Sotova, director of the Quality Assurance Center, Fatima Valiyeva, head of the International Relations Department.

During the meeting, both parties provided concise overviews of their activities and engaged in discussions regarding potential future collaborations.

The conclusion of the meeting featured the rector presenting a gift to the visitors on behalf of Khazar University.




*Sang Jeong Lee, Kim Dong-hyun, Hamlet İsaxanlı, İradə Xəlillova, Məhəmməd Nuriyev*



# XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİNƏ TATARISTAN TƏHSİL NAZİRİNİN TƏŞƏKKÜR MƏKTUBU TƏQDİM EDİLMİŞDİR

Tatarıstan Respublikasının təhsil naziri İlsurom Xadullin Xəzər Universitetinin müəllimi filoloq-türkoloq Elza Səmədliyə gənc nəslin təhsil və tərbiyəsi işində çoxillik səmərəli fəaliyyətinə və əldə etdiyi nailiyyətlərə görə təşəkkür məktubu göndərmişdir.

Elza Səmədli 2023-cü il noyabrın 23-də Tatarıstan Respublikasının Azərbaycandakı daimi nümayəndəliyinə dəvət olunmuş və təşəkkür məktubu ona təqdim edilmişdir.

# KHAZAR UNIVERSITY FACULTY MEMBER RECEIVES A LETTER OF GRATITUDE FROM THE MINISTER OF EDUCATION OF TATARSTAN

The Minister of Education of the Republic of Tatarstan, Ilsurom Khadullin, sent a letter of gratitude to Elza Samadli, Khazar University faculty member, philologist-turkologist, for her many years of fruitful work and achievements in the education and upbringing of the young generation.



БЛАГОДАРСТВЕННОЕ
ПИСЬМО

Э.Н. Самедли

Уважаемая Эльза Низами гызы!

Elza Samadli was invited to the permanent representation of the Republic of Tatarstan in Azerbaijan on November 23, 2023, and a letter of gratitude was presented to her.

# “İNTEQRATİV DƏRS” LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ AÇIQ DƏRS

# OPEN LESSON WITHIN THE "INTEGRATIVE LESSON" PROJECT

Noyabrın 23-də Xəzər Universitetində Dillər və ədəbiyyatlar departamentinin “İnteqrativ dərs” layihəsi çərçivəsində “Həqiqət və məcaz (İrfan söhbətləri)” mövzusunda ibtidai sinif müəllimliyi (ingilis dilində) ixtisasının I kurs tələbələri üçün açıq dərs keçirilib.

Departamentin müəllimləri Qardaşxan Əzizxanlı və Rüstəm Lazımov dünyamızı “vasitələr dünyası” adlandıran irfançıların insanları həqiqi və məcazi vasitələrlə kəmiyyət pilləsindən keyfiyyət pilləsinə səslədiklərindən söz açaraq, onların ağıl və “vasitəsiz dünya” sayılan eşq pilləsi arasında gediş-gəliş edərək, həqiqəti qavramağa çalışdıqlarından danışıblar.

R.Lazımov “İrfan nədir?” sualına “İrfan iki addımdır: bir addımını qoyursan nəfsin üzərinə, o birisi addımda artıq Haqqı bulmuş olursan,” – deyə irfan alimlərinin sözləri ilə cavab verib.

Açıq dərs tələbələrin və mühazirəçilərin qarşılıqlı sual-cavabı ilə yekunlaşıb.

*AZƏRTAC* dərs haqqında xəbər yayımlayıb:

On November 23, an open class was held for first-year students of primary school teaching (in English) on the topic "Truth and Metaphor (Conversations of Lore)" within the "Integrative Lesson" project of the Department of Languages and Literatures at Khazar University.

The faculty members of the department, Gardashkhan Azizkhanli and Rustam Lazimov, explored how the Lore, referring to our world as "the world of means," guides individuals from a quantitative to a qualitative level using both concrete and figurative expressions. They discussed the pursuit of truth by navigating between the realms of reason and love, often described as the "immediate world."

In response to the question "What is lore?" R. Lazimov invoked the words of gnostic scholars, stating, "Lore is two steps: you take one step on the soul, and on the other step you have already found the Truth." The session concluded with an interactive question-and-answer segment involving students and instructors.

The lesson was covered by *AZERTAC* news.

*https://azertag.az/xeber/heqiqet_ve_mecaz_movzusunda_inteqrativ_ders-2833843*




*Tatyana Zaytseva , Aytac Mısgərli*

## XƏZƏR UNİVERSİTETİNİN KİTABXANA İNFORMASİYA MƏRKƏZİ "ANOKS LINK" BEYNƏLXALQ KONFRANSINDA

## KHAZAR UNIVERSITY LIBRARY INFORMATION CENTER AT" ANOX LINK " INTERNATIONAL CONFERENCE

Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzi 2023-cü il noyabrın 20-23-də Antalyada keçirilən "ANKOS Link 2023" beynəlxalq konfransında təmsil olunub. Cümhuriyyətin 100 illiyinə həsr olunmuş konfransın əsas mövzusu universitet kitabxanalarının fəaliyyətlərinin genişləndirilməsi və təkmilləşdirilməsi idi.

Dünyanın müxtəlif ölkələrinin kitabxana-informasiya mütəxəssislərinin qatıldığı bu tədbirdə Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzinin direktoru Tatyana Zaytseva və direktor müavini Aytac Misgərli də iştirak ediblər. Öncə Mərkəz haqqında iştirakçılara məlumat verilib. Sonra süni intellektin kitabxanalara təsiri, yeni platformalardan istifadə qaydaları, rəqəmsal arxivlərin yaradılması, kitabxanalarda yeni texnologiyaların tətbiqi barədə təqdimatlar edilib.

Konfrans müddətində nüfuzlu nəşriyyatların elmi məlumat bazalarının nümayəndələri ilə də görüşlər keçirilib.

Khazar University Library Information Center actively participated in the "ANKOS Link 2023" international conference held in Antalya from November 20-23, 2023. The conference was centered around enhancing and expanding university library activities in the Republic's 100th year.

The even was attended by Tatyana Zaytseva, the director of Khazar University's Library Information Center, and Aytaj Misgarli, the deputy director. It drew library and information specialists from various countries, where the Khazar University representatives introduced their center. The conference featured presentations on topics such as the influence of artificial intelligence on libraries, the utilization of new platforms, the establishment of Digital Archives, and the integration of novel technologies into libraries.

Additionally, meetings were conducted with representatives from esteemed publishing houses' scientific databases during the conference

## MAGİSTRATURA TƏHSİLİNİ "XƏZƏR"DƏ ALMAĞIMA MƏMNUNAM

## I AM PLEASED TO STUDY MY MASTER'S DEGREE AT KHAZAR UNIVERSITY




Mən, Dəniz Üste, Xəzər Universitetinin MBA (Mediasiya ixtisası) birinci kurs tələbəsiyəm. Niyə bəs Xəzər Universitetini seçdiyimin əsas səbəbini soruşsanız, sizə bu barədə bir az ətraflı məlumat verərəm.

Əvvəla, ilk olaraq araşdırmalarım nəticəsində bu universitetinin beynəlxalq sferada reytinqi və uğurları məni məhz "Xəzər"də təhsil almağa həvəsləndirdi. Çünki beynəlxalq universitetdə təhsil almaq həm gələcək karyeram, həm də özümü təkmilləşdirmək baxımından olduqca faydalıdır. Türkiyədə hüquq fakültəsini bitirmişəm və hazırda hüquqşünas kimi çalışıram. Düşünürəm ki, magistr təhsili almaq mənim peşəkarcasına təkmilləşməyimdə mühüm rol oynayacaq. İnanıram ki, Xəzər Universitetində daha çox uğur qazanacağam.

Türkiyə vətəndaşı olduğum üçün oxşar mədəniyyətinizin də burada şahidi oldum.İsti və mehriban öyrənmə mühiti olduğu üçün indiyədək təhsil prosesində heç bir çətinliklə qarşılaşmamışam. Bir sözlə, indiyə qədər həm təhsil, həm də kampus həyatımda hər şey yaxşı və məhsuldar gedir. Təhsil prosesimi uğurla başa vuracağıma şübhə ola bilməz.

*Hazırladı: Arzu Bədəlova*

I am Deniz Uste, MBA (Mediation) first year student at Khazar University. If you ask me why I have chosen Khazar University, I will give you a little bit of detail.

First, as a result of my research, Khazar University's ranking and success in the international arena encouraged me to study here. Being at an international university is very valuable for both my career and self-improvement. I feel lucky in terms of acceptance. I graduated from law school and I am working as a lawyer in Turkiye. Doing a master's degree will improve me professionally. I believe that I will add more to myself within Khazar University. Moreover, since I am a Turkish Citizen, I cannot see any cultural difference. In terms of adaptation, I have not encountered any difficulties so far because it is a warm and friendly learning environment. My goal is to improve myself as much as possible in the field of mediation, where I have completed my master's degree. To sum up, so far, everything in both academic and campus life is going well and productively. I aim to complete my education process successfully.

*Prepared by: Arzu Badalova*



*Layihə koordinatoru Hatice Karakaya, Rifat Can, Şahin Əliyev*

## İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNİN TƏLƏBƏLƏRİ ERASMUS+ PICASP LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ BEYNƏXLALQ TƏDBİRDƏ

28 oktyabr-3 noyabr tarixində ERASMUS+PICASP (Xəzər regionunun inkişafını dəstəkləmək məqsədilə universitet-sənaye əməkdaşlığını həyata keçirən Təcrübə Müəssisələri pilot kursları) layihəsinin maliyyə dəstəyi ilə "MİRAS" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi və Belçika Türk Dərnəkləri Birliyi tərəfindən idman, sağlam həyat, motivasiya kimi mövzularda Belçika və Azərbaycandan olan gənclər üçün maarifləndirici təlimlər, eyni zamanda ölkəmizlə tanışlıq turları keçirilib.

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbələri Şahin Əliyev, Fərid Babayev, Ziya Əlizadə, Cəlal Yaqub və Çingiz Ağayev bu təlimdə fəal iştirak ediblər.

Oktyabrın 29-da hər iki ölkəni təmsil edən gənclər təlim prosesində Türkiyə Cümhuriyyətinin 100 illiyini qeyd edərək, İstiqlal marşını birlikdə ifa ediblər. Bayram əhval-ruhiyyəsi gün boyu davam edib. Tədbiri "MİRAS" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli açaraq, günün proqramını elan edib. Belçika Türk Dərnəkləri Birliyinin sədri Rifat Can öz çıxışında bu təlimlərin gənclərimizin gələcək həyat yollarına işıq saçacağına ümid bəslədiyini ifadə edib.

Layihə çərçivəsində gənclər oktyabrın 30-da Ağsu rayonunun Gəgəli kəndində "Tərəkəmə yurdu" və Ağsu şəhərində orta əsr arxeoloji qazıntı ilə tanış olaraq, "Çilingağac" milli oyununu izləyiblər. Oktyabrın 31-də isə gənclər Gəncə şəhərində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının müəllimi Xəyyam Orucovun "Milli İdman Oyunları" haqqında geniş təqdimatını dinləyiblər və Gəncənin gəzməli-görməli yerləri ilə tanış olublar. Noyabrın 1-də isə onlar təbiətimizin gözəl incisi olan Göygöl Milli Parkına baş çəkiblər və buradakı alman evlərinə tamaşa ediblər.

## STUDENTS OF THE SCHOOL OF ECONOMICS AND MANAGEMENT AT AN INTERNATIONAL EVENT WITHIN THE FRAMEWORK OF ERASMUS+ PICASP PROJECT

On October 28-November 3, with the financial support of the ERASMUS+ PICASP project ( Pilot courses in Practice Enterprise to implement the University-Enterprise Cooperation for the development of Caspian Area ), educational training sessions were conducted by the public Association for the study of Cultural Heritage "MIRAS" and the Union of Turkish Associations of Belgium. These sessions covered sports, healthy living, motivation, and included tours to familiarize young participants from Belgium and Azerbaijan with the respective countries.

Notably, students from Khazar University's School of Economics and Management, namely Shahin Aliyev, Farid Babayev, Ziya Alizadeh, Jalal Yagub, and Chingiz Aghayev, actively engaged in this training.

On October 29, young people representing both countries celebrated the 100th anniversary of the Republic of Türkiye and performed the national anthem together. The festive atmosphere persisted throughout the day, with Fariz Khalilli, Ph.D. in history and chairman of the "MIRAS" Public Union for the Study of Cultural Heritage, inaugurating the event and outlining the day's agenda. During his address, Rifat Jan, chairman of the Union of Turkish Associations of Belgium, expressed optimism that these training sessions would shed light on the future paths of the youth.

As part of the project, on October 30, the young individuals explored the "Yurd of Tarakama" in the village of Gageli, Agsu district, and the medieval archeological excavation in the city of Agsu, and observed the national game "Chilingagac". On October 31, they listened to the comprehensive presentation of Khayyam Orujov, an instructor of the Azerbaijan State Academy of Physical Education and Sports, about "National Sports Games" in Ganja and visted Ganja's must-see places. On November 1, they visited the enchanting Goygol National Park, a beautiful pearl of our nature and the German houses within.

The one-week program concluded with the participants receiving Youthpass certificates.



## MEMARLIQ VƏ DİZAYN DEPARTAMENTİNİN MÜƏLLİMİ İSPANİYANIN EASD CASTELLO UNİVERSİTETİNDƏ

## LECTURER OF THE DEPARTMENT OF ARCHITECTURE AND DESIGN AT EASD CASTELLO UNIVERSITY IN SPAIN



Noyabrın 13-17-də Xəzər Universiteti Memarlıq və dizayn departamentinin müəllimi Mehdi Samadi Erasmus+ işçi heyətinin mübadiləsi proqramı (KA107) çərçivəsində İspaniyanın Escola de'Art i Superior de Disseny de Castello Universitetində (EASD Castello) keçirilmiş Beynəlxalq Mobillilik Həftəsində iştirak etmişdir.

Proqram, əsasən, yaradıcılıq layihələri üzərində qurulmuşdur. Bir neçə ölkənin iştirakçıları incəsənətin müxtəlif sahələrində layihələrini seminar və vörkşop şəklində təqdim ediblər.

Mehdi Samadi öz layihəsini Azərbaycan və İspaniyanın tətbiqi sənətini özündə birləşdirən vahid bir kompozisiyada təqdim edib. Əvvəlcə onun hər iki ölkənin tətbiqi sənəti haqqında hazırladığı seminar təşkil olunub. Sonra kompozisiyasını qurmaq prosesi başalnıb. İlk olaraq kompozisiya daş üzərində qurulub, sonrakı mərhələdə oyma işi davam edib və sonda isə daşda yonulan naxışlar rənglənib. İş prosesi vörkşopda iştirak edən müəllimlər və tələbələr tərəfindən maraqla qarşılanıb və sonda həmin iş EASD Castello Universitetinin rəhbərliyi tərəfindən universitetdə quraşdırılaraq, oranın daimi kolleksiyasında yer alıb.

Mehdi Samadinin seçdiyi bu mövzüdan məqsəd Azərbaycanın ən dəyərli sərvətlərindən biri olan xalça yaradıcılığını təbliğ etmək olub.

On November 13-17, Khazar University Architecture and Design Department lecturer Mehdi Samadi participated in the International Mobility Week held at the Spanish Escola de'Art i Superior de Disseny de Castello University (EASD Castello) within the Erasmus+ staff exchange program (KA107).

Focused on creative projects, the program featured participants from various countries showcasing their projects across different art fields through seminars and workshops.

Mehdi Samadi presented his project, a unified composition merging the applied art of Azerbaijan and Spain. Initially, he conducted a seminar on the applied arts of both countries, followed by the collaborative construction of the composition. Starting with stone construction, the process advanced through carving, concluding with painted patterns on the stone. The workshop participants, including teachers and students, showed keen interest in the creative process. Ultimately, the completed work was installed at EASD Castello University and became a part of the university's permanent collection.

Mehdi Samadi's chosen theme aimed to highlight and promote the artistic value of Azerbaijani carpet creativity.



# YAŞAMAQ ÜÇÜN DÜNYANIN ƏN YAXŞI ŞƏHƏRLƏRİ

"InterNations" yaşamaq üçün ən yaxşı yerlər haqqında illik hesabatını açıqlayıb.

"Qafqazinfo" "Forbes"ə istinadən xəbər verir ki, siyahıda 49 şəhər son bir ildə əcnəbilərin xaricdə yaşamaq və işləmək barədə istəkləri əsasında sıralanıb.

Araşdırma 12 000-dən çox xarici vətəndaş arasında sorğu nəticəsində aparılıb. Hesabatda həyat keyfiyyəti, məskunlaşma asanlığı, şəxsi maliyyə və s. kimi amillər nəzərə alınıb.

Bu il İspaniyanın Malaqa şəhəri yaşamaq və işləmək üçün dünyanın ən yaxşı şəhəri seçilib.

Dünyanın ən qədim şəhərlərindən biri olan Malaqa Aralıq dənizi şəhəridir. Zəngin tarixi, incəsənət və mədəniyyət səhnəsi (rəssam Pikasso burada anadan olub), xoş iqlimi və gözəl yeməkləri ilə tanınır. Həmçinin Malaqa təhlükəsizliyi, sərfəli ictimai nəqliyyatı, istirahət və sağlamlıq üçün idman növləri, yaxşı sosial həyatı ilə fərqlənir.

İspaniyanın digər 2 şəhəri də siyahının beşliyində yer alıb. Söhbət Alikante və Valensiya (keçən ilki siyahıda birinci idi) şəhərlərindən gedir. Malaqa, Alikante və Valensiya rahat yaşamaq keyfiyyətinə görə bir-birlərindən az fərqlənirlər.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin, Bakı, Sumqayıt və Gəncə "Dünya" məktəblərinin kollektivləri Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlıya anası

**Pərixanım Astanqızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi